RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 162 (9041) ÇƏRŞƏNBƏ, 3 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


## Prezident sərəncam imzaladı



→ 2

## Əlilliyi müəyyən edilmiş bir sıra hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödəmənin verilməsinə başlanılıb

1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödəmənin verilməsinə başlanılıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1513 nömrəli Fərmanının 4.1-ci bəndinin icrası məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 271 nömrəli Qərarı imzalanıb.

→ 2

## Gələcəyin işığı - "yaşıl enerji"



Yaxın keçmişdə elektrik enerjisi qıtlığı yaşayan Azərbaycanın bu gün bütün şəhər və kəndləri nura boyanıb. Biz hətta dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edir və onun Avropaya da ixracını planlaşdırırıq. Zəngəzur dəhlizi fəaliyyətə başlayandan sonra isə yalnız yüklər üçün deyil, eyni zamanda elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər.

→ 4



# Dayanıqlı inkişafın yeni strategiyası

### Azərbaycanın qarşıdakı onillikdə sosial-iqtisadi tərəqqisi daha möhkəm bazis üzərində qurulur

**Son illər Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini təmin edib. Dünya qlobal iqtisadi böhranla üzləşdiyi zamanda Azərbaycanda yaranan dinamik yüksəliş əlbəttə ki, iqtisadi müstəqilliyin yaratdığı reallıqdır. Məhz dövlətin iqtisadi imkanlarının artması ilə sosial problemlər ardıcıl şəkildə həll olunur, insan kapitalının davamlı inkişafı təmin edilir.**

Bütün bunlar əlbəttə ki, Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların nəticəsində reallaşır. Dünyada ən islahatçı Prezident kimi tanınan İlham Əliyevin hər zaman qarşıdakı illər üçün müəyyənləşdirdiyi inkişaf prioritetləri xalqın sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın istənilən qlobal böhrandan az itki ilə çıxmasını təmin edib. Prezidentin təsdiq etdiyi "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" da qarşıdakı onillik üçün hərtərəfli tərəqqinin yol xəritəsi hesab olunur.

### Ölkə iqtisadiyyatı hər il orta hesabla 3-4 faiz artacaq

Sənəddə qeyd edilir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artım təmin olunacaq.

→ 2

## Daşkənddə Azərbaycan, Türkiyə, Özbəkistan nazirlərinin ilk üçtərəfli görüşü keçirilib

### Görüşdə üç dövlətin müvafiq sahələr üzrə məsul nazirləri tərəfindən Daşkənd Bəyannaməsi imzalanıb

Avqustun 2-də Daşkənd şəhərində Azərbaycan, Türkiyə və Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin birinci üçtərəfli görüşü keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikasından xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iştirak ediblər. Nazirlər gündəlikdə duran mövzular üzrə çıxış ediblər.

→ 3

## Xalqın dili onun ruhudur

XIX əsrin ortalarında Azərbaycanda anadilli məktəblərin yaradılması ideyası uğrunda mübarizə geniş vüsət alanda yeni milli maarifçilik hərəkatının görkəmli nümayəndələri A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi, M.Ş.Vazeh, Mirzə Kazım bəy, İ.Qutqaşınlı və başqaları belə təhsil ocaqlarının şəbəkəsinin genişləndirilməsi, orada oxuyan azərbaycanlı uşaqlarının sayının artırılması üçün böyük səy göstərmişdilər.

Zaqafqaziyada dövlət məktəblərinin açılması və Azərbaycan dilinin tədrisi digər xalqlar arasında pedaqoji əlaqələrin inkişafına və möhkəmləndirilməsinə əlverişli zəmin yaratmışdı. Bir sözlə, klassiklərimizdən tutmuş böyük alim, yazıçı, şair, ziyalılarımız üçün ana dili məsələsi, onun işlənməsi, qorunması, inkişafı, yaxın regionlardakı dillərlə rəqabəti prinsipial əhəmiyyət kəsb etmişdir.

→ 5

## İndi Azərbaycan təkcə neft-qaz ölkəsi kimi tanınmır



Ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən islahatlar öz müsbət nəticələrini verməkdə davam edir. Bu sektorda məhsul istehsalı və ixracın artım dinamikası belə qənaətə gəlməyə əsas verir. Üstəlik, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin cari ilin birinci yarısı üzrə "İxrac icmalı"nda açıqlanan rəqəmlərdən də bu, aydın görünür.

→ 4

## Cəmiyyətə və sağlam mətbuata mənəvi ziyan vuranın qarşısı alınmalıdır

### Hüquq-mühafizə orqanları ilə birgə tədbirlər planı "reket jurnalistika" ilə mübarizədə səmərəli nəticələr verə bilər

Son illərdə ölkəmizdə söz, mətbuat, özünüifadə azadlığının təmin edilməsi istiqamətində geniş imkanlar yaradılıb və hazırda çoxsaylı çap, internet mediasının sərbəst fəaliyyət göstərməsi bunun əyani təzahürüdür. Hazırda hər hansı bir media qurumunun, həmçinin xəbər portallarının yaradılması üçün heç bir məhdudiyyət tətbiq edilmir. Ölkədə internetdən, sosial şəbəkələrdən geniş istifadə etmək üçün lazımi imkanlar yaradılıb. İnsanlar sosial şəbəkələrdə öz fikir və rəylərini rahat, sərbəst şəkildə ifadə edə bilirlər.

Lakin silahının söz olduğu jurnalistlərin fəaliyyətlərini həyata keçirdikləri media orqanlarında və sosial şəbəkələrdə son vaxtlar təəssüf doğurucu məqamlar da öz əksini tapır. Hətta özünü jurnalist adlandıran bəzilərinin "fəaliyyəti" yalan xəbər başlıqları ilə başlayıb santaj həddinə qədər şaxələnir. Demək olar ki, həmin şəxslər konkret olaraq "reket jurnalistikası" ilə məşğul olurlar ki, bu da cinayət hərəkətidir.

Əvvəllər "reket jurnalistika" ilə məşğul olanların aşkarlanması o qədər də çətin deyildi. Amma hazırda sosial şəbəkələr onların sayının bir qədər də artmasına səbəb olub. Onlar sosial platformaların bu qədər məşhurlaşdığı vaxtda asanlıqla geniş kütləyə xitab edə bilirlər. Bu da əhali arasında səbəbsiz təşvişin yaranmasına gətirib çıxarır.

→ 5

## Erməni ekspertin etirafı

### "Dramın ucuzlaşması Ermənistanı çökdürür, qarşıda ölkəni heç də yaxşı olmayan günlər gözləyir"

Ermənistanda davam edən etirazlar fonunda iqtisadiyyatda və sosial həyatda yaranan ağır vəziyyətin daha da dərinləşməsi müşahidə olunur. Erməni ekspertlər etiraf edirlər ki, bu gedişlə ölkə böyük fəlakətlərlə üzləşəcək. Yaşanan iqtisadi böhran şəraitində gündəlik istehlak mallarının, xüsusən də ərzaq məhsullarının qiymətində olan artım mövcud durumu daha da pisləşdirir. Bununla yanaşı bildirilir ki, ölkə iqtisadiyyatının xilasına ümid var, lakin bunun üçün hökumət populist addımlardan əl çəkməli, kəmərləri sıxmalıdır.

Dövlət maliyyəsinin idarə edilməsi üzrə beynəlxalq müşavir V.Aramyan 2022-ci ilin qalan ayları üzrə proqnozları nəzərdən keçirərkən bildirib ki, Ermənistan qarşıdakı dövrdə həm sosial, həm də siyasi baxımdan ciddi problemlərlə üzləşəcək. 2020-ci ilin böhranından sonra gələn 2021-ci ilin hamı, hətta inkişaf etmiş ölkələr üçün çətin olduğunu kimsə inkar etmir. Lakin iqtisadi tənəzzül Ermənistanda həm Aİ, həm də region ölkələri arasında ən dərindir. 2022-ci ildə makroiqtisadi canlanma natamam olacaq. 2020-ci ildəki 7,4 faiz iqtisadi gerilədən sonra Ermənistanda iqtisadi artım xeyli aşağı düşüb. Ən azı 7 faizə yaxınlaşa biləcəyi ilə bağlı proqnozlar fantaziyadan başqa bir şey deyil.

Dramın devalvasiyasından sonra dəyər yaradan, Ermənistana pul gətirən bütün sahələr əziyyət çəkir. Məsələn, fermerdən ixrac üçün alınan pomidor və ya badımcanın qiyməti xaricə 1,2 dollara satılırdısa, bunun dəyəri 500 dram idisə, indi xaricə 1,4 dollara satılır.

→ 8



# Xəzər niyə geri çəkilir

→ 6

# Azərbaycan Respublikası Prezidentinin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" 2015-ci il 4 may tarixli 1206 nömrəli, "Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə" 2015-ci il 26 noyabr tarixli 1582 nömrəli, "Azərbaycan Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" 2016-cı il 2 mart tarixli 1843 nömrəli, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2016-cı il 5 may tarixli 2032 nömrəli, "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli, "Azərbaycan Polad İstehsalı Kompleksi" Qapalı Səhmdar Cəmiyyətinin ləğv edilməsi haqqında" 2016-cı il 22 dekabr tarixli 2566 nömrəli, "2017-ci ilin məhsulu üçün taxıl əkini sahələrində monitorinqin həyata keçirilməsi haqqında" 2017-ci il 27 mart tarixli 2768 nömrəli, "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kənd təsərrüfatı müəssisəsi ilə bağlı tədbirlər haqqında" 2017-ci il 19 iyul tarixli 3120 nömrəli, "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli və "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 9 fevral tarixli 3657 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 565; 2016, № 2 (II kitab) maddə 345; 2020, № 5, maddə 602) 1.2-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 noyabr tarixli 1582 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1400) 4-cü hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli 1843 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 486; 2017, № 8, maddə 1521; 2018, № 10, maddə 2034; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 3297 nömrəli Sərəncamı) 2-ci hissəsindən "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri" sözləri çıxarılsın.

4. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli 2032 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 901; 2020, № 5, maddə 602) 4.3-cü bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1864; 2019, № 5, maddə 817; 2020, № 5, maddə 602) 6.2-ci bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Polad İstehsalı Kompleksi" Qapalı Səhmdar Cəmiyyətinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 2566 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2191) 2-ci hissəsindən "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə" sözləri çıxarılsın.

7. "2017-ci ilin məhsulu üçün taxıl əkini sahələrində monitorinqin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 mart tarixli 2768 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 454) 3-cü hissəsindən "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi," sözləri çıxarılsın.

8. "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kənd təsərrüfatı müəssisəsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyul tarixli 3120 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1455) 1-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin.

9. "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1680; 2018, № 11, maddə 2287; 2021, № 1, maddə 67, № 9, maddə 1036) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1-ci hissədə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

9.2. 3.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. sitrus meyvələri, çay və çəltik istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin istifadəsindəki və ya onların istifadəsinə veriləcək yeni torpaq sahələri üzərində mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınmasını təmin etsin.";

9.3. 4-cü hissə ləğv edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli 3657 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 260, № 11, maddə 2287; 2019, № 5, maddə 909; 2021, № 11, maddə 1235) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 8.1.5-ci yarımbəndinin "İcraçılar" sütununda "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2022-ci il*

# Dayanıqlı inkişafın yeni strategiyası

*Əvvəli 1-ci səh.*

Keyfiyyətli məhsul və xidmətlər ixracı hesabına ölkə iqtisadiyyatı qlobal dəyər zəncirinə inteqrasiya ediləcəkdir. Bu məqsədlə daha sağlam və rəqabətli biznes mühiti yaradılacaq,

Həmçinin sahibkarlığın inkişafına dövlət geniş dəstək verəcək və dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi artırılacaq, onların hesabatlılığı gücləndiriləcək. Nəticədə ölkə iqtisadiyyatı hər il orta hesabla 3-4 faiz, qeyri-neft, qaz ÜDM-i isə illik orta hesabla 5 faiz artacaq. Özəl sektorun iqtisadiyyatda payı 88 faizə çatdırılacaq.

Sağlam və rəqabətli biznes mühiti üçün qanunun aliliyi təmin olunacaq və effektiv məhkəmə islahatları həyata keçiriləcək. Bu islahatlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların mülkiyyətinin və maraqlarının effektiv müdafiəsinə imkan verəcək. Sahibkarlıq fəaliyyəti üzərində izafi tənzimləmə optimallaşdırılacaq. Təbii inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısı alınacaq və bütün bazarlarda rəqabət gücləndiriləcək. Dövlət satınalmalarında şəffaflıq və səmərəlilik artırılacaq.

İnvestisiyalar üçün əlverişli vergi şərtləri tətbiq ediləcək və digər fiskal stimullar veriləcək və bu islahatların həyata keçirilməsi sayəsində biznes mühiti daha da sağlamlaşacaq, milli iqtisadiyyata etimad artacaq. Nəticədə böyük həcmdə daxili və xarici investisiyalar cəlb ediləcək.

## Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin şəffaflığı gücləndiriləcək

Bu dövrdə sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin effektivliyi, ünvanlılığı və şəffaflığı gücləndiriləcək. Uğurlu ölkələrin təcrübələri əsasında biznes startaplarının və inkubatorlarının, ixracyönümlü istehsal və xidmətlər üzrə layihələrin dəstəklənməsi mexanizmləri təkmilləşdiriləcək. Nəticədə, sahibkarlıq fəaliyyətinə başlamaq və fəaliyyətlərini genişləndirmək istəyənlər, xüsusilə kiçik və orta bizneslər üçün yeni maliyyələşmə mexanizmləri yaradılacaq.

Bu əsasda sahibkarlara dəstək üzrə sərf olunan maliyyə vəsaitinin 20-30 faizinin mikro, 35-45 faizinin kiçik və 25-35 faizinin orta sahibkarlara yönəldirilməsi hədəflənir. Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəliliyi yüksəldiləcək, idarəetmə yaxşılaşdırılacaq və şəffaflığı artırılacaq.

Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi, maliyyə dayanıqlığı və rəqabət qabiliyyəti artırılacaq. İqtisadiyyatda dövlətin bilavasitə iştirakı optimallaşdırılacaq, strateji sahələr istisna olmaqla, dövlət mülkiyyətində olan aktivlərin mərhələli şəkildə özəlləşdirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək ki, bu da dövlət resurslarına olan tələbatı və riskləri azaldacaq. Həmçinin özəlləşdirilməsi müəyyən müddət məqsədəuyğun hesab olunmayan təsərrüfat subyektlərinin kommersiyalaşdırılması və ya idarəetməyə verilməsi yolu ilə səmərəlilik göstəricilərinin daha da yaxşılaşmasına nail olunacaq.

Qeyri-neft, qaz sektoruna birbaşa xarici investisiya (BXİ) cəlbi təşviq ediləcək, dövlət mülkiyyətində olan aktivlərin özəl sektora transformasiyası baş verəcək. Strateji sahələr istisna olmaqla, dövlətə məxsus olan hüquqi şəxslərin özəlləşdirilməsi və dövlət-özəl tərəfdaşlıq mexanizmləri ilə iqtisadiyyatın maliyyələşdirilməsi həyata keçiriləcək. Dövlət investisiyalarının effektivliyi artırılacaq, onun özəl investisiyaları stimullaşdırma potensialı yüksəldiləcək

## Dayanıqlı iqtisadi artım üçün ölkədə makroiqtisadi sabitlik təmin olunacaq

Strategiyada nəzərdə tutulan digər məsələ aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artırılmasıdır. Qeyd edilir ki, bu sahələr üzrə həyata keçiriləcək yeni texnologiyalar məhsuldarlığı artırmaqla yanaşı, yeni iş yerlərinin açılmasını şərtləndirəcək.

Dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahələrin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaq. Dövlət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022-2026-cı illərdə kənd təsərrüfatı hər il orta hesabla 4 faiz artacaq. Nəqliyyat sektorunda orta illik artım tempi 5 faizi üstələyəcək. Ölkənin tranzit yükdaşımalardan əldə etdiyi gəlir 2019-cu ildəki 227 milyon manatdan 2 dəfəyədək artaraq 450 milyon manata çatacaq.

Qeyri-neft, qaz sənayesi hər il orta hesabla 8,3 faiz artacaq, sənaye zonalarının qeyri-neft, qaz sənaye istehsalında payı 15 faiz, qeyri-neft, qaz sənaye ixracında payı isə 25 faiz olacaq.

Dayanıqlı iqtisadi artım üçün ölkədə makroiqtisadi sabitlik və dayanıqlıq təmin olunacaq, maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi gücləndiriləcək. Makroiqtisadi sabitliyin və maliyyə sabitliyinin gücləndirilməsi iqtisadi artımın davamlılığı üçün vacibdir. Ölkənin makroiqtisadi dayanıqlığı irihəcmli strateji ehtiyatlarının mövcudluğu milli iqtisadiyyatımızın xarici mühitdəki dəyişikliklərə dayanıqlı olmasını gücləndirəcək.

## Bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaq

Strategiyada dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə strateji çərçivədə qeyd edilir ki, hər zaman olduğu kimi, qarşıdakı dövrdə də əməkhaqları artırılacaq və hamı üçün layiqli həyat səviyyəsi təmin ediləcək. İşləyənlərin həyat səviyyəsinin lazımınca təmin edilməsi məqsədilə minimum əməkhaqları artırılacaq. Xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunacaq.

Özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaq, yeni iş yerləri açan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaq. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək.

Bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaq. Pensiyaçılar üçün effektiv yığım, aztəminatlı əhali qrupu üçün zəruri ehtiyacların ödənilməsi, əlilliyi olan şəxslər üçün sosial yardımların əlçatanlığı artırılacaq. Pensiya sisteminin dayanıqlığı gücləndiriləcək, sosial sığortanın tətbiqi genişləndiriləcək. Hamı üçün bərabər iştirak imkanı yaradan sosial təminat və sosial xidmətlər sistemi inkişaf etdiriləcək. Minimum pensiya məbləği minimum əməkhaqqı səviyyəsinin 75-80 faizində saxlanılacaq.

Əminliklə deyə bilərik ki, iqtisadi müstəqilliyini təmin edən Azərbaycan İlham Əliyevin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan bütün tədbirlər planlarını, layihələri uğurla reallaşdıracaq. Necə ki, indiyədək dövlət proqramları çərçivəsində icra edilən layihələr kimi. Ölkənin artan iqtisadi, maliyyə imkanları bunu söyləməyə tam əsas yaradır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Əlilliyi müəyyən edilmiş bir sıra hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödəmənin verilməsinə başlanılıb

1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödəmənin verilməsinə başlanılıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1513 nömrəli Fərmanının 4.1-ci bəndinin icrası məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 2 avqust tarixli 271 nömrəli Qərarı imzalanıb.

Qərarla təsdiq olunmuş "Qayda" Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən xəsarət alması nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara və daxili işlər orqanları əməkdaşlarına, habelə onların ailə üzvlərinə birdəfəlik ödəmənin verilməsini tənzimləyir.

Birdəfəlik ödəmənin məbləği Azərbaycan Respublikası Prezidentinin 23.12.2021-ci il tarixli 1513 nömrəli Fərmanı ilə aşağıdakı kimi müəyyən olunub:

I dərəcə əlilliyə görə - 8 800 manat;
II dərəcə əlilliyə görə - 6 600 manat;
III dərəcə əlilliyə görə - 4 400 manat.

Birdəfəlik ödəmə almaq hüququ olan şəxslər aşağıdakılardır:

- 1997-ci il avqustun 2-dək olan xidmət dövründə aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş şəxslər;
- Hərbi xidmət vəzifələrini yerinə yetirərkən xəsarət və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş şəxslər;
- Xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş, lakin sonradan reabilitasiya olunmuş şəxslər;
- Müəyyən edilmiş məbləğdən az məbləğdə sığorta ödənişi almış şəxslər;
- Yuxarıda göstərilən kateqoriyadan olan şəxslər vəfat etdikdə onların vərəsələri.

Birdəfəlik ödəmə dövlət büdcəsindən bu məqsədlə ayrılmış vəsait hesabına ödənilir.

# Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanıldı

## İlk olaraq sənədləri e-sistemdə olan 11 minədək müharibə əlilinə proaktiv qaydada ödəmə təyin olunaraq bank hesablarına köçürülüb

Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramına start verildi. Nazirlər Kabinetinin yeni təsdiq etdiyi Qaydaya uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, Proqram "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun qüvvəyə mindiyi 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuları və daxili işlər orqanları əməkdaşlarını, onlardan vəfat edənlərin vərəsələrini əhatə edir.

Həmin dövrədək hərbi xidmətdə xəsarət alması barədə məlumatları aidiyyəti qurumlar tərəfindən müvafiq elektron sistemə daxil edilmiş, o cümlədən sığorta ödənişi alması üçün məhkəmə qətnaməsi olan 11 minədək şəxsə e-sistem üzərindən proaktiv qaydada (heç bir quruma müraciət etmədən) ödəmə təyin olunaraq onların bank hesablarına köçürülüb. Bu barədə, habelə ödəməni hansı bankdan alacağına dair onlara SMS göndərilir.

Eyni zamanda birdəfəlik ödəmə təyin olunmuş şəxslər bu barədə məlumatı nazirliyin sosial.gov.az saytındakı "Müharibə əlillərinə birdəfəlik ödəmə" pəncərəsinə daxil olaraq da əldə edə bilərlər.

Birdəfəlik ödəmə Azərbaycan Beynəlxalq Bankından (ABB) sosial ödəniş alan şəxslərin mövcud kartlarına ödənilir. ABB-də kartı olmayan, birdəfəlik ödəmə təyin olunmuş şəxslər yeni kartlarını ABB-nin istənilən filialından şəxsiyyət vəsiqəsi ilə əldə edə bilərlər.

E-sistemlərdə, habelə müvafiq arxivlərdə aldığı xəsarətlə bağlı məlumat olmadığı üçün elektron qaydada ödəmə təyin edilməyən şəxslər isə xəsarətlə bağlı şəhadətnamənin (və ya qərar, arayış) elektron sistemə daxil edilməsi üçün xidmət keçdikləri qurumun hərbi-həkim komissiyasına (həkim-uçuş komissiyasına) müraciət etməlidirlər.

Qeyd edilən sənəd aidiyyəti qurum tərəfindən e-sistemə daxil edildikdən sonra aşağıdakı sənədlərlə DOST mərkəzlərinə, vahid əlaqələndirmə mərkəzlərinə və ya DSMF-nin yerli bölmələrinə müraciət etməlidirlər:

- birdəfəlik ödəmənin verilməsi üçün ərizə;
- şəxsiyyət vəsiqəsi;
- əlilliyin 1997-ci il avqustun 2-dək olan xidmət dövrü ilə bağlı təyin edilməsinə dair tibbi-sosial ekspertiza komissiyasının qərarı (tibbi-sosial ekspertiza komissiyasının müayinə aktından çıxarış və s.).

Birdəfəlik ödəmə almaq hüququ olan şəxs vəfat edibsə

● Adı sosial.gov.az saytında proaktiv ödəmə almaq hüququ olan şəxs kimi çıxırsa, həmin şəxsin vərəsəsi (vərəsələri) notariat orqanına müraciət edib vərəsəlik şəhadətnaməsini almalıdır. Bu barədə notariat orqanı tərəfindən nazirliyin e-sisteminə məlumat daxil olduqdan sonra vərəsəyə proaktiv ödəniş həyata keçiriləcək;

● Adı sosial.gov.az saytında proaktiv ödəmə almaq hüququ olan şəxs kimi çıxmadıqda isə vərəsə (vərəsələr) xəsarətlə bağlı şəhadətnamənin (və ya qərar, arayış) elektron sistemə daxil edilməsi üçün xidmət keçdikləri qurumun hərbi-həkim komissiyasına (həkim-uçuş komissiyasına) müraciət etməlidirlər. Sənəd daxil edildikdən sonra əgər vəfat etmiş şəxsin əlilliyinə dair e-sistemdə məlumat varsa, vərəsəlik şəhadətnaməsi əsasında vərəsəyə dərhal proaktiv təyinat həyata keçiriləcək, ona bu barədə məlumat veriləcək.

● Əlilliyə dair e-sistemdə məlumat olmadıqda isə aşağıda qeyd edilən sənədləri DOST mərkəzlərinə, vahid əlaqələndirmə mərkəzlərinə və ya DSMF-nin yerli bölmələrinə təqdim etməlidirlər:

- birdəfəlik ödəmənin verilməsi üçün ərizə;
- birdəfəlik ödəmə almaq hüququ olmuş hərbi qulluqçunun və ya daxili işlər orqanı əməkdaşının ölüm haqqında şəhadətnaməsi;
- vərəsəlik hüququ haqqında şəhadətnamə;
- vərəsənin (vərəsələrin) şəxsiyyət vəsiqəsi;
- vəfat etmiş şəxsə vaxtilə təyin edilmiş əlilliyin 1997-ci il avqustun 2-dək olan hərbi xidmət dövrü ilə əlaqədar olmasına dair tibbi-sosial ekspertiza komissiyasının qərarı (tibbi-sosial ekspertiza komissiyasının müayinə aktından çıxarış və s.).

Qeyd edək ki, birdəfəlik ödəmənin məbləği təşkil edir:

I dərəcə əlilliyə görə - 8 800 manat
II dərəcə əlilliyə görə - 6 600 manat
III dərəcə əlilliyə görə - 4 400 manat

Bu mövzuda sualları yaranan şəxslər 142 - Çağrı Mərkəzinə, nazirliyin, DOST Agentliyi və DSMF-nin rəsmi saytına, sosial şəbəkə hesablarındakı mesaj bölməsinə, həmçinin info@sosial.gov.az e-ünvanına və ya poçt vasitəsilə müraciət edə bilərlər.

# Azərbaycan Respublikasının müdafiə naziri ilə rusiyalı həmkarı arasında telefon danışığı olub

Avqustun 2-də Rusiya Federasiyasının müdafiə naziri ordu generalı Sergey Şoyqunun təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov arasında telefon danışığı olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı tərəflər regional təhlükəsizlik, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.






# Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan nümayəndə heyəti ilə görüşüb



Avqustun 2-də Azərbaycan, Türkiyə, Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin birinci üçtərəfli görüşündə iştirak məqsədilə Daşkənddə səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov və rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev tərəfindən qəbul edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevə ən xoş salamlarını çatdırıb. Bu ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistana tarixi dövlət səfərinin əhəmiyyətini vurğulayan Prezident Şavkat Mirziyoyev səfər zamanı əldə olunmuş razılaşmalara uyğun olaraq qısa müddət ərzində görülən işləri yüksək qiymətləndirib. Bu xüsusda, artıq bir sıra sahələr üzrə şirkətlər arasında əlaqələrin qurulması, neft və qaz sektorunda şirkətlər arasında razılaşmaların əldə edilməsi, avqustun 1-də keçirilmiş ikitərəfli Azərbaycan-Özbəkistan İqtisadi Komissiyanın iclası və onun nəticələrinin faydalı olduğu vurğulanıb. Həmçinin bu gün ilk dəfə olaraq keçirilmiş Azərbaycan, Türkiyə, Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin tarixi üçtərəfli görüşünün ölkələrimiz üçün əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə eyni zamanda ölkələrimiz arasında həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində olan yüksəksəviyyəli əməkdaşlıq məsələləri, Türk Dövlətləri Təşkilatı çərçivəsində görülən işlər, o cümlədən bu ilin noyabrında Səmərqənddə Zirvə görüşünün keçirilməsinə hazırlıq işləri müzakirə edilib. Ümumilikdə ölkələrimiz arasında əməkdaşlıq imkanlarının yüksək potensialı vurğulanıb.

Xarici işlər naziri Ceyhun Bayramov öz növbəsində Azərbaycan Prezidenti İlham Əliyevin ən xoş arzularını Prezident Şavkat Mirziyoyevin diqqətinə çatdırıb. Prezidentlərin tapşırığına uyğun olaraq, həm ikitərəfli hökumətlərarası komissiyanın nəticələrindən, həm də üçtərəfli formatda qəbul edilmiş Daşkənd Bəyannaməsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində əməli tədbirlərin həyata keçirilməsinin zəruriliyi qeyd edilib. Üçtərəfli formatda görüşün yüksək səviyyədə təşkilinə görə Özbəkistanın dövlət başçısına minnətdarlıq ifadə olunub.

# Daşkənddə Azərbaycan, Türkiyə, Özbəkistan nazirlərinin ilk üçtərəfli görüşü keçirilib

## Görüşdə üç dövlətin müvafiq sahələr üzrə məsul nazirləri tərəfindən Daşkənd Bəyannaməsi imzalanıb

Avqustun 2-də Daşkənd şəhərində Azərbaycan, Türkiyə və Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin birinci üçtərəfli görüşü keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikasından xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iştirak ediblər. Nazirlər gündəlikdə duran mövzular üzrə çıxış ediblər.

Görüşdə xarici siyasət və regional əməkdaşlıq imkanları ilə bağlı məsələlər, üç ölkənin iqtisadiyyat, ticarət, investisiya və nəqliyyat sahələrində əməkdaşlığının tam potensialının həyata keçirilməsi üçün görülən işlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin energetika sahəsində, xüsusilə bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. Azərbaycan, Türkiyə və Özbəkistanın yüksək tranzit potensialından daha yaxşı istifadə etmək məqsədilə beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi imkanları müzakirə edilib. Bu xüsusda,




Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizinin və bu dəhlizin bir hissəsi kimi Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti vurğulanıb. Zəngəzur dəhlizi daxil olmaqla, regionda bütün kommunikasiyaların açılmasının beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsinə xidmət edəcəyi qeyd olunub.

Görüş nəticəsində üç dövlətin müvafiq sahələr üzrə məsul nazirləri tərəfindən Daşkənd Bəyannaməsi imzalanıb və xarici işlər nazirləri üçtərəfli görüşün nəticələrinə dair mətbuat açıqlamaları ilə çıxış ediblər.

Azərbaycan, Türkiyə və Özbəkistan arasında üçtərəfli əməkdaşlıq ortaq tarixə, birgə mədəniyyətə və dəyərlərə əsaslanır. Bu, həmçinin möhkəm ikitərəfli əlaqələr və ölkələr arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinə dayanır. Xarici işlər, iqtisadiyyat və nəqliyyat üzrə məsul nazirlərin iştirakı ilə əsası qoyulmuş yeni üçtərəfli format müvafiq sahələrdə birgə layihələrin işlənib hazırlanmasına və irəli aparılmasına kömək edəcəkdir. Bu, həm də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər üzrə qarşılıqlı fəaliyyəti gücləndirəcək.

# Azərbaycan və Özbəkistan arasında Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclası keçirilib



Azərbaycan nümayəndə heyətinin Özbəkistana səfəri çərçivəsində iki ölkə arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclası keçirilib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycanın iqtisadiyyat naziri, Hökumətlərarası Komissiyanın həmsədri Mikayıl Cabbarov ortaq tarixi, mədəni köklərə, dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-Özbəkistan tərəfdaşlığının gücləndiyini və regional inkişafda rolunu vurğulayıb. Nazir ticarət və investisiya əməkdaşlığının əsas istiqamətlərdən olduğunu, COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, ticarət dövriyyəsində artım dinamikasının müşahidə edildiyini diqqətə çatdırıb.

Tədbirdə ölkəmizin investisiya cəlbediciliyi barədə məlumat verilib, Özbəkistanla sənaye, investisiya, ticarət, energetika, nəqliyyat-tranzit, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi və digər sahələrdə əməkdaşlıq imkanlarının böyük olduğu qeyd edilib. Azərbaycan-Özbəkistan iqtisadi əlaqələrinin şaxələndirilməsi barədə fikirlərini bölüşən iqtisadiyyat naziri işğaldan azad edilmiş ərazilərimizdə aparılan yenidənqurma və bərpa işlərində əməkdaşlıq üçün geniş potensialı qeyd edib, Özbəkistan şirkətlərini bu ərazilərdə fəaliyyətə dəvət edib. Beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın əlverişli geostrateji mövqeyi və böyük tranzit potensialı barədə danışan iqtisadiyyat naziri Özbəkistanla nəqliyyat-tranzit sahəsində tərəfdaşlığın gücləndirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb.

Özbəkistan Respublikası Baş nazirinin müavini, investisiya və xarici ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Cəmşid Xocayev ölkələrimiz arasında bir çox sahələrdə uğurlu əlaqələri qeyd edib, tərəfdaşlığın yeni istiqamətlər üzrə inkişafı, işgüzar münasibətlərin inkişafı və birgə layihələrin icrası barədə fikirlərini bölüşüb.

Tədbirdə tərəflər iqtisadi-ticarət əlaqələrinin intensivləşdirilməsi perspektivlərini müzakirə ediblər.

İclasın sonunda Hökumətlərarası Komissiyanın həmsədrləri tərəfindən Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənəddə ticarət-iqtisadi, kənd təsərrüfatı, energetika, səhiyyə, nəqliyyat-logistika, ətraf mühitin mühafizəsi, dövlət xidmətlərinin göstərilməsi, mədəni-humanitar, sosial və turizm sahələrində əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulur.

Hökumətlərarası Komissiyanın iclası çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Özbəkistan Respublikasının Prezidenti yanında sahibkarlıq subyektlərinin hüquq və qanuni mənafelərinin müdafiəsi üzrə Müvəkkil, İqtisadi Zonalarının İnkişafı Agentliyi ilə "Uzbekipaksanoat" Assosiasiyası, İqtisadi Zonaların İnkişafı Agentliyi ilə "Uztekstilprom" Assosiasiyası arasında memorandumlar imzalanıb.

# Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsinin rəqəmsallaşdırılması və artırılması müzakirə edilib

İqtisadiyyat naziri Mikayıl Cabbarov Daşkənddə Türkiyənin ticarət naziri Mehmet Muşla görüşüb.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə dövlət başçılarının siyasi iradəsinin, verdikləri tapşırıqların icrasının əlaqələrin inkişafında əhəmiyyəti vurğulanıb. Mikayıl Cabbarov qeyd edib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında Preferensial Ticarət Sazişi iqtisadi-ticarət əməkdaşlığımızın gücləndirilməsinə əlavə stimul yaradacaq. Qardaş ölkələr arasında uğurlu investisiya tərəfdaşlığı həyata keçirilir, qeyri-neft ticarət dövriyyəsi artır. Vurğulanıb ki, Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən genişmiqyaslı enerji layihələri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rola malikdir.

Görüşdə Mikayıl Cabbarov Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, qardaş Türkiyə ilə əlaqələrin daha da genişləndirilməsi barədə fikirlərini bölüşüb.

Türkiyənin ticarət naziri Mehmet Muş ortaq dəyərlərə malik olan ölkələrimizin dostluq və qardaşlıq münasibətlərini, strateji müttəfiqliyini vurğulayıb, Azərbaycan-Türkiyə iş birliyinin daha da gücləndirilməsi istiqamətləri, nəqliyyat-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi barədə fikirlərini bildirib. Tərəflər iqtisadi tərəfdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin rəqəmsallaşdırılması və artırılmasını müzakirə ediblər.

# Özbəkistanla yeni birgə layihələr tərəfdaşlığımızı gücləndirəcək

Özbəkistanda səfərdə olan iqtisadiyyat naziri Mikayıl Cabbarovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzini və Heydər Əliyev meydanını ziyarət edib, Ümummilli Liderin abidəsi önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.





İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində nazir Mikayıl Cabbarov və Özbəkistan Respublikası Baş nazirinin müavini, investisiya və xarici ticarət naziri Cəmşid Xocayev arasında görüş keçirilib. Mikayıl Cabbarov dövlət başçılarının ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verdiklərini və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu il iyunun 21-22-də Özbəkistana rəsmi səfərinin əlaqələrin daha da genişlənməsində mühüm rolunu vurğulayıb. Səfər zamanı əməkdaşlığın bir çox sahələrini əhatə edən sənədlərin imzalandığını diqqətə çatdıran iqtisadiyyat naziri əldə olunan razılaşmaların, yeni layihələrin münasibətləri strateji tərəfdaşlığın keyfiyyətcə yeni səviyyəsinə yüksəldəcəyinə əminliyini ifadə edib.

Görüşdə iqtisadi əlaqələrin inkişafı barədə məlumat verilib, ticarət dövriyyəsinin artdığı, bununla belə, əməkdaşlığın inkişafı üçün böyük perspektivlərin olduğu bildirilib. Qeyd edilib ki, uğurla inkişaf edən iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya əlverişli platformadır.

Tədbirdə Özbəkistanla sənaye sahələri üzrə əməkdaşlığın inkişafı, neft-qaz, neft-kimya, əczaçılıq, tikinti materialları, tekstil və qida məhsulları, zərgərlik məmulatları istehsalı, şərabçılıq və digər sahələrdə yeni layihələrin həyata keçirilməsinin qarşılıqlı investisiyaların artmasına və ölkələrimizin iqtisadiyyatının inkişafına töhfə verəcəyi bildirilib.

İqtisadiyyat naziri ticarət, investisiya, sənaye, nəqliyyat, energetika, kənd təsərrüfatı və s. sahələrdə əlaqələrin gücləndirilməsi imkanlarını qeyd edib, Özbəkistan iş adamlarını Azərbaycanda yaradılmış əlverişli işgüzar mühitdən yararlanmağa, işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması layihələrində iştiraka dəvət edib.

Özbəkistan Respublikası Baş nazirinin müavini, investisiya və xarici ticarət naziri Cəmşid Xocayev ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini, qarşılıqlı səfərlərin, aparılan müzakirələrin regional əməkdaşlığın inkişafında və yeni biznes əlaqələrinin qurulmasında rolunu qeyd edib. Özbəkistan şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini bildirən Cəmşid Xocayev biznes dairələri arasında əlaqələrin genişləndirilməsinin, müxtəlif sahələrdə yeni birgə layihələrin icrasının önəmini diqqətə çatdırıb.

Tərəflər iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı, investisiya qoyuluşlarının və ticarət dövriyyəsinin artırılması, sənaye sahələri üzrə əməkdaşlığın genişləndirilməsi, birgə investisiya fondunun yaradılması, eləcə də Daşkənddə Azərbaycan və Özbəkistan regionları arasında birinci forumun və yerli məhsulların nümayiş etdiriləcəyi sərginin təşkili barədə fikir mübadiləsi aparıblar.

Daşkənddə fəaliyyət göstərən "Global textile" müəssisəsində olan Azərbaycan nümayəndə heyəti "Uztekstilprom" Assosiasiyasının sədri İlxom Haydarovla və "Uzbekipaksanoat" Assosiasiyasının sədri Bahrom Şaripovla görüşüb.

Tərəflər Azərbaycan və Özbəkistan arasında tekstil sektorunda işgüzar dialoqun və investorlar arasında əlaqələrin gücləndirilməsinin ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına təkan verəcəyini qeyd edib, tekstil sənayesində əlaqələrin inkişafı, rəqabətqabiliyyətli təbii ipək məhsullarının istehsalı və satışının genişləndirilməsi üzrə əməkdaşlıq, təcrübə mübadiləsi barədə müzakirələr aparıblar.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Həmkarlar İttifaqları Konfederasiyasından həssas qrupların özünüməşğulluğuna növbəti dəstək

### Bununla bağlı ƏƏSMN ilə memorandum imzalanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair memorandum imzalanıb.**

Sənədi əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və AHİK-in sədri, millət vəkili Səttar Möhbalıyev imzalayıblar. S.Babayev Prezident İlham Əliyevin tapşırığına əsasən, sosial müdafiə və aktiv məşğulluq proqramlarının ildən-ilə genişləndirildiyini bildirib. O, 2021-ci ildə 16 mindən çox şəxsin özünüməşğulluq proqramına cəlb edildiyini, bu göstəricinin proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 14 dəfə çox olduğunu diqqətə çatdırıb. Son 4 ildə 50 minədək ailənin özünüməşğulluq proqramına cəlb edilərək kiçik ailə təsərrüfatlarını yaratdığını deyib.

Nazir proqramın icrasında xüsusilə şəhid ailələri və müharibə iştirakçılarına üstünlük verildiyini vurğulayıb. Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə bu kateqoriyalardan olan 8 min şəxsin özünüməşğulluq proqramına cəlb olunduğunu qeyd edib. S.Babayev özünüməşğulluq proqramının genişləndirilməsi işlərində sosial tərəfdaşlarla, o cümlədən AHİK-lə fəal əməkdaşlığın həyata keçirildiyini bildirib.

Sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsünə dəstəyin növbəti ifadəsi olan yeni memorandumun bu sahədə əməkdaşlığı davam etdirməyə əsas yaratdığını vurğulayıb.

S.Möhbalıyev AHİK və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşlıq gündəliyinin geniş olduğunu qeyd edib. Son vaxtlar həssas qrupların özünüməşğulluğunun dəstəklənməsi üzrə də əməkdaşlıq təcrübəsi formalaşdığını bildirib. İmzalanan yeni sənədin ölkəmizdə həssas əhali qruplarının sosial dəstəklə təminatı işlərində konfederasiyanın da yaxından iştirak etdiyinin növbəti göstəricisi olduğunu diqqətə çatdırıb.

## Azərbaycanda daha bir pambıqtəmizləmə zavodu istifadəyə veriləcək

**Türkiyənin Kahramanmaraş şəhərində yerləşən "Do Cotton Group" şirkəti Azərbaycanda daha bir pambıqtəmizləmə zavodunu yaxın zamanlarda istifadəyə verməyə hazırlaşır.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov avqustun 2-də Kahramanmaraşda "Do Cotton Group" şirkətində olaraq buradakı istehsal prosesinin vəziyyəti ilə tanış olub.

Ağcabədi rayonunda tikilən zavodda qurulması nəzərdə tutulan texnologiya və avadanlıqlar barədə Azərbaycanın səfirinə məlumat verilib. Bildirilib ki, istehsal prosesi qrafikə uyğun aparılır və heç bir ləngimə yoxdur.

"Do Cotton Group" şirkətinin rəhbəri Mehmət Doğan məlumat verib ki, tam şəkildə Türkiyə istehsalı olan texnologiya və avadanlıqlar bu ilin pambıq yığımı mövsümünə qədər təyinat məntəqəsində quraşdırılacaq. İstehsal olunan texnologiya və avadanlıqlar bir sıra keyfiyyət göstəricilərinə malikdir.

## Gələcəyin işığı - "yaşıl enerji"

**Yaxın keçmişdə elektrik enerjisi qıtlığı yaşayan Azərbaycanın bu gün bütün şəhər və kəndləri nura boyanıb. Biz hətta dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edir və onun Avropaya da ixracını planlaşdırırıq. Zəngəzur dəhlizi fəaliyyətə başlayandan sonra isə yalnız yüklər üçün deyil, eyni zamanda elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər.**

Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə energetika sektorunun həmişə prioritet təşkil etdiyini və indi bu sahədəki imkanlarımızın bir çox ölkələr üçün də böyük önəm daşıdığını vurğulayıb. Bu gün diqqət xüsusilə bərpaolunan enerji mənbələrindən istifadəyə yönəldilib. Uzun illər ərzində bu sahənin inkişafı üçün böyük hazırlıq işləri görülüb. İlk növbədə xarici investorların cəlb edilməsi məqsədi qarşıya qoyulub və buna da nail olunub.

Hazırda xarici sərmayədarlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə həvəs və inamla qoşulublar. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" külək-elektrik stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" günəş-elektrik stansiyasının təməli qoyulub.

Beləliklə, xarici investorlar öz vəsaitləri hesabına ölkəmizdə 710 meqavat gücündə üç günəş və külək-elektrik stansiyasının tikintisi ilə məşğuldur. İkisi, qeyd olunduğu kimi, artıq inşa edilir, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən isə Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Hazırda bu istiqamətdə müəyyən təhlillər aparılır.

Prezident İlham Əliyev bu barədə belə deyib: "Cəbrayıl rayonundakı stansiyanın inşası üçün hazırlıq işləri gedir. Yəqin ki, gələn il o inşaat da başlayacaq. Bu, ancaq başlanğıcdır. Bizim artıq xarici investorlarla əldə etdiyimiz razılaşmalara görə, əlavə iki min meqavat və ondan da əlavə iki min meqavat günəş və külək-elektrik stansiyalarının inşası



### Prezident İlham Əliyev: "Bu gün bizim enerji imkanımız bir çox ölkələr üçün də böyük önəm daşıyır"

nəzərdə tutulur. Üstəgəl, Kəlbəcər və Laçın rayonlarında su-elektrik stansiyalarının istehsal gücü yenidən dəyərləndirilir. Çünki biz müharibədən sonra ancaq ermənilərin dağıtdıqları su-elektrik stansiyalarının istehsal gücünü hesablamışdıq. Orada 32 su-elektrik stansiyası var idi ki, ermənilər Kəlbəcər, Laçından gedəndə onları vəhşilər kimi dağıtdılar. Biz onları hesablayaraq müəyyən rəqəm səsləndirmişdik. Ancaq indi daha dərin təhlil aparılır. Çünki orada daha böyük həcmdə su-elektrik stansiyalarının inşası mümkündür. İndi təhlil hazırlanır, yəqin ki, biz orada perspektivdə ancaq kiçik su-elektrik stansiyalarından mindən çox meqavat götürə bilərik".

Son bir il yarım ərzində 9 su-elektrik stansiyasının inşası başa çatıb, yaxud yekunlaşmaq üzrədir. Bu da əlavə 50 meqavat elektrik enerjisi verəcək. Su-elektrik stansiyalarını çıxmaq şərtilə bərpaolunan enerji növlərinin istehsalına vəsaiti dövlət deyil, xarici sərmayədarlar yönəldir. Prezident bunun daha böyük həcmdə elektrik enerjisi ixrac etməyə imkan verəcəyini bildirib: "İndi biz ənənəvi yolla - mövcud olan yüksək gərginlikli xətlərlə ixrac edirik. Amma biz gələcəkdə Zəngəzur dəhlizi ilə elektrik ixracını təşkil edə bilərik və Avropa tərəfindən yeni layihə təqdim edildi. Qara dənizin altından Gürcüstandan Rumıniyaya qədər kabelin çəkilişi layihəsi də var və biz bu layihəyə də maraq göstəririk. Yəni bu sahədə çox böyük perspektivlər var. Eyni zamanda bu, bizə imkan verəcək ki, təbii qaza qənaət edək və qənaət edilmiş təbii qazı ixrac edək, xüsusilə nəzərə alsaq ki, bizim qazımıza tələbat indi kəskin artıb".

Yeni Zəngəzur dəhlizi, Qara dənizin altından çəkiləcək kabel, ənənəvi Azərbaycan-Gürcüstan-Türkiyə yolu, İran-Azərbaycan elektrik bağlantısı - bütün bu infrastruktura yenidən baxmaq lazım gəlir. Belə ki, indi orta hesabla ildə 1000 meqavat gücündə elektrik enerjisini ixrac edə biliriksə, bunun 5000 meqavata çatdırılmasına potensial olmalıdır. Ona görə də "Azərenerji"yə və digər aidiyyəti qurumlara bu işin əsaslı şəkildə görülməsi ilə bağlı tapşırıqlar verilib. Elə edilməlidir ki, artıq enerji hasil olunanda ortaya ixracla bağlı problem çıxmasın. Məsələn, potensial alıcılarla danışıqlar aparılmalıdır, şərtlər razılaşdırılmalıdır. Mümkün olan bazarlar təsbit edilməlidir. Gələcəyin bununla bağlı olduğunu qeyd edərək dövlət başçısı deyib: "Biz hamımız yaxşı bilirik ki, artıq ənənəvi enerji növlərinə investisiyalar dayanacaq. Hidrogen, yaşıl hidrogen, elektrik enerjisi - bunlardır gələcəyin enerji növləri. Biz burada bir addım geri olmamalıyıq, əksinə, qabağa getməliyik və bütün imkanlar var".

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Buraya daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Üstəlik, bizim Xəzər dənizi kimi nəhəng bir enerji mənbəyimiz var. Bu həmçinin xarici mütəxəssislərin diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayen də keçən ay Bakıda olarkən bunu vurğulayıb. Başqa sözlə, ölkəmizin bərpaolunan enerji istehsalı sahəsində böyük potensialı Avropa İttifaqı tərəfindən yüksək dəyərləndirilir. Artıq külək və günəş enerjisinə sərmayə qoyuluşu prosesinə başlanıb. Bərpaolunan enerji potensialı ilə bağlı ilkin qiymətləndirmə də aparılıb. Bu məsələlər Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda öz əksini tapıb.

Prezident İlham Əliyevin "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 5 dekabr 2019-cu il tarixli sərəncamı ilə yaradılmış komissiyanın yenilənmiş tərkibdə ilk iclasının keçirilməsi də sözügedən istiqamətdə ardıcıl işlərin getdiyini göstərir. Belə ki, iclasda Prezidentin energetika sahəsində müəyyən etdiyi hədəflərə uyğun bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində bəzi layihələrin artıq icrasına başlanıldığı, digərlərinə hazırlıq işlərinin aparıldığı və bununla əlaqədar müvafiq qurumların əlaqəli şəkildə fəaliyyət göstərməsinin vacibliyi bildirilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




## İndi Azərbaycan təkcə neft-qaz ölkəsi kimi tanınmır

## Ölkəmiz təkcə bu ilin 6 ayında 1,5 milyard dollarlıq qeyri-neft məhsulları ixrac edib

**Ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən islahatlar öz müsbət nəticələrini verməkdə davam edir. Bu sektorda məhsul istehsalı və ixracın artım dinamikası belə qənaətə gəlməyə əsas verir. Üstəlik, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin cari ilin birinci yarısı üzrə "İxrac icmalı"nda açıqlanan rəqəmlərdən də bu, aydın görünür.**

"İxrac icmalı"nın iyul sayında açıqlanan rəqəmlərə görə, cari ilin yanvar-iyun ayları ərzində ölkə üzrə ixracın dəyəri 18,5 milyard, o cümlədən qeyri-neft sektorunda 1,5 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac ötən illə müqayisədə 295,4 milyon dollar artıb.

İcmalda bildirilir ki, hesabat dövründə meyvə-tərəvəz məhsullarının ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 7,1 faiz artaraq 328,1 milyon dollara çatıb. Müvafiq dövr ərzində kimya sənayesi məhsullarının ixracı 5, alüminium və ondan hazırlanan məmulatların ixracı 2 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 26,1, pambıq lifi ixracı 12,8, pambıq iplik ixracı isə 5,2 faiz artıb. İxrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı 136,9 milyon dollarla birinci, tomat (pomidor) 126,9 milyon dollarla ikinci, karbamid 98,7 milyon dollarla üçüncü yerdə qərarlaşıb.

"İxrac İcmalı"na əsasən, cari ilin yanvar-iyun ayları ərzində Türkiyəyə 428,4 milyon, Rusiya Federasiyasına 382 milyon, Gürcüstana 88,2 milyon, İsveçrə Konfederasiyasına 84,6 milyon, ABŞ-a 57,5 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub.

İyun ayı üzrə ixracın dəyəri isə 3,1 milyard dollar təşkil edib. Yayın ilk ayında qeyri-neft sektoru üzrə ixracda artım 5,8 faiz olmaqla, 269,6 milyon dollara çatıb. Həmin dövr yeyinti məhsulları üzrə ixracın dəyəri 6,6 faiz artaraq 119,6 milyon, qeyri-yeyinti məhsulları üzrə 5,1 faiz artaraq 149,9 milyon dollar olub.

İyun ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci və İsveçrə üçüncüdür. Həmin ay ixrac edilən qeyri-neft məhsullarının sırasında da meyvə və tərəvəz ixracı üstün olub.

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə cari ilin yanvar-iyun aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilib. Qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "P-Aqro" MMC, "STP Alüminium" MMC, "Şimal AqroPark" MMC, "Rose Servis" MMC, "ZR-78 Company" MMC, "Almeyvə" MMC, "Mors Trading" MMC, "Aqrovest" MMC. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Sonrakı yerləri "Azəralüminium" MMC, "Socar Polymer" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "AzerGold" QSC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan MR Dövlət Energetika Xidməti şirkətləri tutur.

İcmalda bildirilir ki, hesabat dövründə "Azərkosmos" tərəfindən dünyanın 34 ölkəsinə 13,1 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) göstərilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 87 faizini təşkil edib. Cari ilin iyun ayında isə "Azərkosmos" dünyanın 32 ölkəsinə 2,3 milyon dollarlıq xidmət edib.

İlin birinci yarısında peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracında ilk beşlikdə 3,3 milyon dollarla Birləşmiş Krallıq, 2,8 milyon dollarla Fransa, 2,2 milyon dollarla Lüksemburq, 1,2 milyon dollarla BƏƏ və 0,7 milyon dollarla Pakistan qərarlaşıb.

"İxrac İcmalı"na görə, ilin birinci yarısında Azexport.az portalına 248,4 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Ötən ilin iyun ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 33,4 milyon dollara çatıb. Həmin ay portala edilən ixrac sifarişlərinin tərkibində tibbi zəli, tibbi tənzif, qara çay, pambıq yağı, boya, alkaqolsuz (energetik) içkilər, meyvə kompotu, sement (tikinti materialı), konservləşdirilmiş tomat, günəbaxan yağı və s. məhsullar üstünlük təşkil edib. Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından cari ilin 30 iyun tarixinə kimi (66 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 3,08 milyard dollardır. Həmçinin "İxrac İcmalı"nda o da göstərilib ki, bu ilin iyul ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 17,4 milyon dollar olub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycan-Türkiyə enerji əməkdaşlığı müzakirə olunub

**Energetika nazirinin müavini Elnur Soltanov Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Alparslan Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müzakirələrdə iki ölkə arasında enerji əməkdaşlığının ikitərəfli və regional faydalarına toxunaraq, Bakı-Tbilisi-Ceyhan neft kəməri, TANAP kimi qlobal enerji layihələrindən bəhs edilib. Azərbaycan və Türkiyənin ortaq layihəsi olan TANAP layihəsinin Türkiyənin təbii qaz tələbatının ödənilməsi ilə yanaşı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas enerji mənbələrindən biri kimi mühüm rol oynadığı qeyd olunub. Regionda artan qaz tələbatı kontekstində əlavə qaz həcmlərinin tədarükü istiqamətində atılan addımlar müzakirə edilib. Azərbaycan və Türkiyə arasında elektrik enerjisi mübadiləsi məsələsinə toxunulub, Türkiyə vasitəsilə elektrik enerjisinin tranziti və ixracı imkanlarından bəhs edilib. Zəngəzur dəhlizi vasitəsilə Türkiyəyə və Türkiyə vasitəsilə Avropaya elektrik enerjisi ixracı imkanlarının öyrənilməsi, eləcə də Azərbaycan-Gürcüstan-Rumıniya Qara dəniz sualtı kabel layihəsi barədə fikir mübadiləsi aparılıb, regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik enerjisi sahəsində regional əməkdaşlığa töhfə verəcək səylərin artırılmasının vacibliyi diqqətə çatdırılıb.

Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi istiqamətdə həyata keçirilən layihələr haqqında məlumat verilib və Türkiyəli investorların bu proseslərdə iştirakı üçün geniş imkanlar olduğu bildirilib.

Görüşdə, həmçinin növbəti Azərbaycan-Türkiyə Enerji Forumunun keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Daha 7 sahibkar "Startap" şəhadətnaməsi alıb

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən daha 7 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib.**

Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 49-a çatıb. "Startap" şəhadətnaməsi "Glorri" MMC-nin işə götürmə prosesinin optimallaşdırılması üzrə onlayn HR platforması, "Mie Azerbaijan" MMC-nin "CLD" tədris texnologiyası əsasında təlim tədris xidmətləri, "Eduaz co." MMC-nin tələbə, təlimçi və şirkətlər üçün təhsil platforması, "Dronee Aero" MMC-nin "Simurq F" markası altında müxtəlif təyinatlı dronların istehsalı və satışı, "Alimok" MMC-nin uşaqların fərdi inkişaf və zehni biliklərini artırmaq üçün təhsil platforması, "Vvaverıty" MMC-nin neft-qaz sektorunda geoloji dataların emalı və vizualizasiyası üçün proqram təminatı və "Plast" MMC-nin tibb xidmətlərinin mobil tətbiq üzərindən sifarişi layihələri üçün təqdim edilib.

"Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.






# Xalqın dili onun ruhudur

**XIX əsrin ortalarında Azərbaycanda anadilli məktəblərin yaradılması ideyası uğrunda mübarizə geniş vüsət alanda yeni milli maarifçilik hərəkatının görkəmli nümayəndələri A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi, M.Ş.Vazeh, Mirzə Kazım bəy, İ.Qutqaşınlı və başqaları belə təhsil ocaqlarının şəbəkəsinin genişləndirilməsi, orada oxuyan azərbaycanlı uşaqlarının sayının artırılması üçün böyük səy göstərmişdilər.**

Zaqafqaziyada dövlət məktəblərinin açılması və Azərbaycan dilinin tədrisi digər xalqlar arasında pedaqoji əlaqələrin inkişafına və möhkəmləndirilməsinə əlverişli zəmin yaratmışdı. Bir sözlə, klassiklərimizdən tutmuş, böyük alim, yazıçı, şair, ziyalılarımız üçün ana dili məsələsi, onun işlənməsi, qorunması, inkişafı, yaxın regionlardakı dillərlə rəqabəti prinsipial əhəmiyyət kəsb etmişdir. Vaxtilə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev, Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli kimi ziyalılar bütün qüvvələrini anadilli məktəblərlə yanaşı, anadilli mətbuatın yaranmasına yönəltmişdilər. Hərçənd ki, ötən əsrin əvvəllərində ana dilinin necə, hansı istiqamətdə və əsasda inkişafı problemi ən qızğın mübahisələrə səbəb olmuşdur.

## Tarix və dil əmanəti

Azərbaycanda bir neçə əsr ərzində hökmranlıq edən yadellilər yerli əhalinin ana dilində təliminə əhəmiyyət vermirlər. Onlar islam ideologiyasını yaymaq və möhkəmləndirmək məqsədilə Azərbaycan dilini assimilyasiya edir, ərəb və fars dilləri məktəb və mədrəsələrdə əsas tədris dili hesab olunur, elmi, ədəbi və bədii əsərlər həmin dillərdə yazılırdı. Lakin belə ağır təzyiq və təsirlərə baxmayaraq, Azərbaycan xalqı öz ana dilini qoruyub saxlaya bildi və üstəlik, XIX əsrin əvvəllərindən təlimin ana dilində aparılması ideyası uğrunda mütərəqqi ziyalıların "maarifçilik hərəkatı" adı altında mübarizəsi daha da gücləndi. Azərbaycan dili təkcə Zaqafqaziyada deyil, bütün Yaxın Şərqdə böyük rol oynamağa başladı. O vaxta qədər əhali arasında yalnız danışıq dili olan Azərbaycan dili artıq bu dövrdə müstəqil bir fənn kimi Azərbaycan şəhərlərində deyil, Qafqazın Tiflis, İrəvan, Dərbənd, Stavropol, Qori, Kutaisi və digər iri şəhərlərində yenicə açılmış dövlət məktəblərinin tədris planlarına daxil edildi.

O zamanlar Azərbaycan dilinin tədrisi nə qədər zəruri və həyati əhəmiyyət kəsb edirdisə, bir o qədər də çətin idi. Bu çətinliklərin başlıca səbəblərindən biri müəllim kadrlarının çatışmazlığı, digəri isə yeni üsullu dərsliklərin olmaması ilə bağlı idi. M.F.Axundzadə Azərbaycan dilinin tədrisi sahəsində qarşıda duran hər iki mühüm problemin həllində böyük fəallıq göstərmişdir. Mirzə Fətəli Tiflis qəza məktəbində 1834-1840-cı illər arasında Azərbaycan dilindən dərs demişdir. Məhz bu dövrdə o, təlim-tərbiyənin, xüsusilə ana dili təliminin bir sıra vacib məsələləri ilə yaxından tanış olmuşdur.

Məktəb tarixinin tədqiqatçısı akademik Hüseyn Əhmədovun araşdırmalarından məlumdur ki, M.F.Axundzadənin pedaqoji fəaliyyətində diqqəti cəlb edən ən mühüm məsələlərdən biri ana dili dərsliyinin yazılması ilə bağlıdır. O zamanlar Azərbaycan dilinin tədrisi üçün nə müvafiq dərslik, nə də çap olunmuş oxu kitabları var idi. Şagirdlər təmiz Azərbaycan dilində olan ədəbiyyatdan məhrum idilər. M.F.Axundzadənin yazdığı kimi, əgər bu dildə bəzi əsərlər vardısa, onlar da ya başqa dillərdən tərcümə edilmiş, ya da fars, türk və ya ərəb sözləri ilə dolu anlaşılmaz bir dildə yazılmışdı. Bu tərcümələr əsasında Azərbaycan dilinin ruhunu duymaq və bu dili xalqın istədiyi tərzdə tədris etmək mümkün deyildi. Maarifçi demokrat öz həmvətənləri üçün yeni üsullu bir dərslik üzərində işləməyə başladı. Lakin o, tezliklə müəllim vəzifəsindən azad olunduqdan sonra həmin dərsliyi yazıb axıra çatdıra bilmədi. Onun başladığı bu xeyirxah işi davam etdirmək Mirzə Fətəlinin yerinə müəllim təyin edilmiş M.Ş.Vazehə nəsib oldu.

## Dilimiz misilsiz xəzinədir

Ötən əsrin 30-cu illərində - mədəni inqilab dövründə savadsızlığın ləğvi Azərbaycan dilinin inkişafı üçün sonsuz imkanlar yaratdı: ana dilində dərsliklər yazıldı, Azərbaycan folklorunun toplanması və nəşri sahəsində ciddi işlər görülməyə başlandı. Bu prosesdə Salman Mümtaz, Həmid Araslı, Məmmədhüseyn Təhmasib kimi folklorşünas alimlərin xüsusi əməyi olmuşdur. Məhəbbət və qəhrəmanlıq dastanlarının, xalq nağıllarının, bayatı və atalar sözlərinin çapı ana dilimizin yeni-yeni zəngin qatlarını üzə çıxardı, ədəbi dilin saflaşmasına təkan verdi. Digər tərəfdən, elmi üslubun təşəkkülü dilimizin bir elm kimi tərəqqisi yolunda da mühüm rol oynadı. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində Dilçilik İnstitutu yaradıldı. Qısa vaxtda dil tarixi, dialektologiya, müasir dilçilik, lüğətçilik sahələrində dəyərli tədqiqatlar aparıldı. Görkəmli dilçi alimlərin M.Şirəliyev, Ə.Orucov, Ə.Dəmirçizadə, M.Hüseynzadə və başqalarının elmi axtarışları nəticəsində Azərbaycan dilçiliyi türkologiyada öz nüfuzlu yerini tutdu. Dörd cildlik "Azərbaycan dilinin izahlı lüğəti", "Rusca-azərbaycanca", "Azərbaycanca-rusca" lüğətlərinin təkmilləşdirilmiş çapları ana dilimizin həqiqi zənginliyini, onun lüğət tərkibinin genişliyini üzə çıxardı.

Dil problemləri böyük ideoloji və sosial məsələlərlə bağlı olsa da, XX əsrin əvvəllərinə qədər dillərin dövlət qanunları sistemində təsbit olunması ənənəsi yox idi. Azərbaycan Respublikasının tarixinə gəlincə, milli dilimizin statusunun konstitusiyada və digər qanunlarda əksini tapması özü maraqlı faktlarla bağlıdır.

Azərbaycan dilinin dövlət dili kimi hüquqi aktlarda təsbit olunması məsələsi hələ XX əsrin əvvəllərində - Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə böyük aktuallıq kəsb etmişdi. O zaman parlamentin istifadə etdiyi dil Azərbaycan türkcəsi idi. Qeyri-millətlərdən olan yerli əhalinin nümayəndələri çıxışların rus dilində olmasını təklif edəndə parlamentin iclaslarından birində bu məsələ geniş müzakirə olunmuş və xüsusi qərar qəbul edilmişdi. Qərara əsasən, parlamentin rəsmi dili Azərbaycan dili elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri hələlik məqbul sayılmışdı. Bununla belə rəsmi sənədlərin hamısı ana dilində tərtib edilirdi. Azərbaycan türkcəsində olmayan sənədlərə baxılmırdı. Bu barədə Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli xüsusi fərmanı da mövcuddur.

Respublikamızda sovet hakimiyyətinin qurulduğu ilk illərdə bu sahədə yenilik baş verməmişdi. 1937-ci ildə qəbul olunmuş Azərbaycan SSR-in yeni Konstitusiyasında da Azərbaycan dilinin hüquqi statusu barədə heç nə qeyd edilmirdi. Şübhəsiz ki, bu keçmiş sovet rəhbərliyinin apardığı totalitar siyasətin diktə etdiyi reallıq idi. Stalin repressiyalarının geniş vüsət aldığı bir vaxtda Konstitusiyaya ana dili ilə bağlı hər hansı düzəliş və ya əlavə etmək həm kifayət qədər riskli, həm də perspektivsiz addım idi.

Stalinin ölümündən sonra repressiyaya son qoyulması və totalitarizmin ən ağır formalarının aradan qaldırılması istiqamətində atılmış addımlar xalqlara qarşı ayrı-seçkilik siyasətini müəyyən qədər məhdudlaşdırdı və nəhayət, belə bir vəziyyətdə - 1956-cı ildə Azərbaycan Respublikası Ali Soveti 1937-ci il Konstitusiyasına xüsusi əlavə qəbul etdi. Həmin əlavədə Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması əksini tapdı. Lakin bu qərar bir tərəfdən respublikanın özündəki mənfur qüvvələrin, digər tərəfdən mərkəzdəki mühafizəkarların müqavimətilə rastlaşdı. Azərbaycan dilinə keçilməsi barədə tələblər Moskvada narazılıq doğurdu. Yazıçı və şairlərimiz, dilçi-filoloqlarımız sosializm dövründə "hər bir millətin öz müqəddəratını təyin etmək hüququ"nu dil sahəsində də tətbiq etməyə çalışırdılar. Bu meyil Mirzə İbrahimovun fəaliyyətində özünü qabarıq şəkildə göstərirdi. O zaman keçmiş sovet imperiyası milli hərəkatın, milli dirçəlişə səbəb olacaq hər hansı bir tədbirin qarşısını almaq üçün hər cür təxribata hazır idi. Ümummilli Lider Heydər Əliyev həmin dövrü xarakterizə edərkən deyirdi ki, "ən emosional məsələləri də ancaq ağlın gücü ilə həll etmək lazım idi. Azərbaycan cəmiyyətinin o dövrdəki vəziyyəti elə idi ki, dərhal qərar verib bütünlüklə Azərbaycan dilinə keçmək çox riskli, mərkəzə meydan oxumaqdı". Mirzə İbrahimovun "təcrübəsi" həmin yolun uğursuzluğunu artıq göstərmişdi. Azərbaycan dili dövlət-idarəçilik sisteminə tədricən, təkmilləşə-təkmilləşə daxil olmalı, milli məmurlar, dəftərxana işçiləri yetişməli idi…

## Əlifba islahatı

Belə bir münasibət Azərbaycan əlifbasına qarşı da olmuşdu. Aydındı ki, xalqın həyatında, elmin, mədəniyyətin inkişafında əlifbanın son dərəcə mühüm əhəmiyyəti var. Tarixə müraciət etsək görərik ki, islamın yayıldığı dövrlərdən xalqımız ərəb əlifbasından istifadə etmiş, min ildən artıq bir zaman ərzində zəngin mədəni irs yaratmışdır. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmaması XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundzadə başda olmaqla, dövrün mütərəqqi maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdir. Mirzə Fətəli millətin ümumi mədəniyyətinə, ana dilinin inkişafına, əhalinin savadlanmasına çalışırdı. O, ərəb əlifbasının böyük əngəllər törətdiyini görmüş və düz 20 il bu əlifbanın dəyişdirilməsi uğrunda mübarizə aparmışdı. M.F.Axundzadənin yeni əlifba uğrunda apardığı mübarizə onun ana dili təlimi, anadilli məktəb ideyası ilə üzvi surətdə əlaqədar idi. Ötən yüzilliklər sübut etdi ki, maarifçi mütəfəkkirin ana dili uğrundakı mübarizəsi nəticəsiz qalmadı.

## Ana dilimizin təəssübkeşi: cəsarətli mövqe

Ötən əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərində Azərbaycana rəhbər təyin edilən Ümummilli Lider Heydər Əliyev respublikanın iqtisadi, ictimai-siyasi və mədəni-ideoloji həyatında dirçəliş yaratmaqla yanaşı, dil məsələsinə də xüsusi diqqət və qayğı göstərmişdir. Böyük rəhbərin ilk gündən yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri içərisində nüfuzunu artırmaq. Lakin həmin dövrdə rus dilinin mövqeyi respublikada hələ çox güclü idi - nəinki dövlət idarəçiliyi, cari təsərrüfat, xüsusilə sənaye sahələrində də rus dilindən geniş istifadə olunur, kənddən şəhərə, respublikanın paytaxtına gələn gənclər bu baxımdan müəyyən çətinliklərlə rastlaşırdılar. Azərbaycan KP-nın qurultayları, MK-nın plenumları bir qayda olaraq rus dilində aparılırdı. Heydər Əliyev bütün mürəkkəbliyi ilə dərk edirdi ki, Moskva ruslaşdırma siyasətini yürüdür, lakin bu qeyri-humanist, bayağı siyasət müxtəlif yollarla pərdələnir, Azərbaycan dili dövlətçilikdən, inzibati idarə sistemindən, elmdən, mədəniyyətdən, təhsildən sıxışdırılır, yalnız məişət dili səviyyəsinə endirilirdi. Belə bir siyasət xalqını sevən rəhbərdə daxili etiraz doğurmaya bilməzdi. Ona görə də 1970-ci illərdən etibarən respublikanın müxtəlif ali məktəblərində ana dili və ədəbiyyatı ixtisası üzrə tələbə qəbulunun sayı artırıldı, qəbulda ana dilindən yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə məcburi hesab edildi. Tədris Azərbaycan dilində aparılan məktəblərin sayı çoxaldıldı. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən mərasimdə respublika rəhbəri ana dilində çıxış etdi. Bunda məqsəd ana dilimizin yüksək səviyyədə təbliği idi.

1978-ci ildə Azərbaycan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması haqqında müddəanın müəllifi Heydər Əliyev olmuşdur. Həmin dövrdə respublika rəhbəri cəmiyyətdəki mövqeyini, siyasi taleyini riskə qoyaraq Əsas Qanunumuzda Azərbaycan dilinin dövlət dili olması barədə müddəanın varlığını təmin etmək üçün təşkilati işlər aparmış, elmi və ziyalı qruplarını da bu işə cəlb etmişdir. Sovet imperiyası şəraitində belə bir davranış əsl vətənpərvərlik, vətəndaşlıq nümunəsi idi. Uzaqgörən rəhbərin qətiyyəti və iradəsi sayəsində bu müddəa yeni Konstitusiyanın 73-cü maddəsində öz təsdiqini tapmışdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dil məsələsinə baxışda müxtəlif ziddiyyətlər və fikir ayrılıqları meydana çıxmağa başladı. Bu, xüsusilə AXC-Müsavat hakimiyyəti dövründə özünü daha qabarıq şəkildə büruzə verirdi. Bəzi qüvvələr heç bir məntiqi əsasa söykənmədən dövlət dilinin adının dəyişdirilməsini və onun "türk dili" adlandırılmasını təklif edirdilər. Uzun müzakirələrdən sonra 1992-ci ilin dekabrında Milli Məclisdə dövlət dili haqqında qanun müzakirə olunmuş və Azərbaycanda dövlət dilinin "türk dili" olması barədə qərar qəbul edilmişdi. Hətta təcili "Türk dili" adlı dərsliklərin çapı da həyata keçirilmişdi. Qeyd edək ki, bu qanunun, əslində, heç bir hüquqi qüvvəsi yox idi.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər olunurdu və onların böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması ideyası dəstəklənirdi. Müzakirələrin nəticəsi olaraq 1995-ci il Konstitusiyasının 21-ci maddəsində Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı.

## Azərbaycan dövlətinin dil siyasəti

Ülu Öndər Heydər Əliyev Azərbaycan dilinin qorunmasına və inkişafına tarixin bütün dövrlərində xüsusi diqqət yetirmişdir. 2001-ci ilin 18 iyununda Ümummilli Liderimiz "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır. Bu tarixi sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. 2001-ci il avqustun 9-da Azərbaycan Prezidenti yeni fərman -"Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" digər mühüm bir sənədə imza atmışdı. Bu sənəd ana dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə stimul verdi, yaddaşımıza və milli-mənəvi dəyərlərimizə, eyni zamanda əlifbamızın beynəlxalq aləmə daha yaxın olan latın qrafikalı Azərbaycan əlifbasına keçidi sürətləndirdi. Məhz bundan sonra respublikada bütün yazılı sənədələşmələr heç bir istisnaya yol verilmədən latın qrafikası ilə aparılmağa başladı.

2002-ci ilin sentyabrında Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Həmin qanunda dövlətin ana dilinə qayğısı sahəsindəki əsas vəzifələr dəqiq şəkildə göstərildi.

Bu gün Ulu Öndərin müəyyənləşdirdiyi milli-mənəvi dəyərlərimizə, elmin və mədəniyyətin inkişafına daimi dövlət qayğısının təmin olunması xətti uğurla davam etdirilir. Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirən ölkə rəhbəri milli dil əmanətinə də sadiqdir. 12 yanvar 2004-cü ildə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi", 14 yanvar 2004-cü il tarixli "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 30 dekabr 2007-ci il tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlar, ayrı-ayrı toplantılarda ana dilimizin inkişafı ilə bağlı irəli sürülən tezislər müasir dövrdə dilimizin inkişafına təkan verən möhtəşəm tədbirlərdir.

Biz hazırda elə bir dünyada yaşayırıq ki, qloballaşma prosesi həyatımızın az qala hər anında özünü göstərir. Onun təməlində beynəlxalq ünsiyyət dayandığından bu prosesin müsbət və mənfi təsirləri ən çox dil mühitində özünü büruzə verir. Həmin amillər nəzərə alınaraq 2013-cü ilin aprelində "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələbinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncam imzalandı. Bu, ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından tarixi bir hadisə idi.

Azərbaycan dilinin elektron məkanda geniş istifadəsini təmin edən tədbirlər sırasında isə Prezident İlham Əliyevin 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı dilimizin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı isə ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir.

Heç zaman unutmamalıyıq ki, dilin qorunması, inkişafı dövlət tərəfindən irəli sürülən norma və tələblərlə yanaşı, eyni zamanda vətəndaşlıq məsuliyyəti tələb edən məsələdir. Ana dilimizdə milyonlarla insan danışır və yazır. Onların bu dildən hansı şəkildə faydalandıqlarını, ona necə münasibət göstərdiklərini tam nəzarətdə saxlamaq mümkün deyil. Amma hər bir vətəndaş çevrəsindəki insanların dilimizi korlayan hallarla rastlaşdığı vaxt ictimai qınağın gücü ilə onların aradan qaldırılmasına nail ola bilər.

Azərbaycan dili tarixi ənənəsi olan kamil dillərdən biridir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Cəmiyyətə və sağlam mətbuata mənəvi ziyan vuranların qarşısı alınmalıdır

## Hüquq-mühafizə orqanları ilə birgə tədbirlər planı "reket jurnalistika" ilə mübarizədə səmərəli nəticələr verə bilər

**Son illərdə ölkəmizdə söz, mətbuat, özünüifadə azadlığının təmin edilməsi istiqamətində geniş imkanlar yaradılıb və hazırda çoxsaylı çap, internet mediasının sərbəst fəaliyyət göstərməsi bunun əyani təzahürüdür.**

Hazırda hər hansı bir media qurumunun, həmçinin xəbər portallarının yaradılması üçün heç bir məhdudiyyət tətbiq edilmir. Ölkədə internetdən, sosial şəbəkələrdən geniş istifadə etmək üçün lazımi imkanlar yaradılıb. İnsanlar sosial şəbəkələrdə öz fikir və rəylərini rahat, sərbəst şəkildə ifadə edə bilirlər.

Lakin silahının söz olduğu jurnalistlərin fəaliyyətlərini həyata keçirdikləri media orqanlarında və sosial şəbəkələrdə son vaxtlar təəssüf doğurucu məqamlar da öz əksini tapır. Hətta özünü jurnalist adlandıran bəzilərinin "fəaliyyəti" yalan xəbər başlıqları ilə başlayıb şantaj həddinə qədər şaxələnir. Demək olar ki, həmin şəxslər konkret olaraq "reket jurnalistika" ilə məşğul olurlar ki, bu da cinayət hərəkətidir.

Əvvəllər "reket jurnalistika" ilə məşğul olanların aşkarlanması o qədər də çətin deyildi. Amma hazırda sosial şəbəkələr onların sayının bir qədər də artmasına səbəb olub. Onlar sosial platformaların bu qədər məşhurlaşdığı vaxtda asanlıqla geniş kütləyə xitab edə bilirlər. Bu da əhali arasında səbəbsiz təşvişin yaranmasına gətirib çıxarır.

Son vaxtlar sosial şəbəkələrdə Vətən müharibəsi ilə bağlı əvvəlki vaxtlara aid olan kadrların, yalan informasiyaların yeni məlumatlar kimi təqdim edilməsi, sözün əsl mənasında, ciddi narahatlıq yaradır. Belə olduğu halda, hüquq-mühafizə orqanlarının jurnalistlərlə birlikdə həmin şəxslərə qarşı ciddi mübarizə tədbirləri planının hazırlanması zərurətini yaradıb. Elə bu məsələ ilə bağlı vəziyyəti şərh edən "Şərq" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Akif Aşırlı qəzetimizə açıqlamasında bildirib ki, "reket jurnalistika" cinayətə bağlı, hüquqi məsuliyyət yaradan fəaliyyət sferasıdır: "Çox təəssüf ki, Azərbaycanda 1990-cı illərdən başlayan "reket jurnalistika" sistemi bütün mərhələlərdə öz cildini dəyişərək müxtəlif formalara düşməklə varlığını qoruyub saxlaya bilib. Bu gün də ciddi problemlərdən biri olan həmin şəxslərlə mübarizədə jurnalistlər, hüquq-mühafizə orqanları ilə birgə cəmiyyət də iştirak etməlidir".

Akif Aşırlı onu da vurğulayır ki, əvvəllər Mətbuat Şurası mübarizə çərçivəsində selektiv işlərin görülməsində müvafiq tədbirlər həyata keçirirdi. "Qara siyahı"lar tərtib edilir, jurnalist peşəsindən sui-istifadə edən media qurumlarının adları həmin siyahıya daxil edilirdi. "Ancaq əfsuslar olsun ki, ictimai qınağa söykənən bu mübarizə metodu qısa müddətdə səmərəli nəticə versə də, uzunmüddətli olmadı".

Hazırda "reket jurnalistika" ənənəvi mediadan yeni mediaya keçid edərək sferasını genişləndirə bilib. Akif Aşırlı qeyd edir ki, əvvəlki vaxtlarda bir neçə reket var idisə və onlar bəzi qurumlarda öz fəaliyyətlərini sərgiləyə bilirdilərsə, indi bu işlərlə məşğul olanların əksəriyyəti evlərində oturaraq asanlıqla çirkin əməllərin daşıyıcısına çevriliblər: "Bütün bunlarla yanaşı, tendensiya halını alan bəzi internet televiziyaları da bu işə öz "töhfələrini" verməkdədir".

Əsassız xəbərlərin, şəxsiyyətə xələl gətirəcək informasiyaların olduqca sürətli yayılması bunu deməyə əsas verir ki, daim əldə olunan məlumatlar etibarlı mənbələrdən yoxlanılmalı, daha sonra auditoriyaya təqdim edilməlidir. Akif Aşırlının fikrincə, öncəliklə dəyişikliklər düşüncələrdən başlanmalıdır. "Reket jurnalistika" ilə mübarizə tədbirlərinə gəldikdə sözsüz ki, uğurlu nəticələrin əldə edilməsi üçün müntəzəm işlər görülməlidir. Hazırda jurnalist təşkilatlarının çoxu aktiv deyil: "Azərbaycanda 30-40-a yaxın jurnalistika ilə bağlı qeyri-hökumət təşkilatları var. Bunlardan yalnız 3-4-nün fəaliyyəti göz önündədir. Belə qurumların hər biri öz vəzifə öhdəliklərini dərk edərək hüquq-mühafizə orqanları ilə birlikdə işləyərlərsə, daha səmərəli nəticənin şahidi olarıq".

Tədbir planında isə ilk növbədə ədalətli, obyektiv mövqeyin tutulması əsas şərtdir. Akif Aşırlı qeyd edir ki, bəzən korrupsiya və digər faktlarla bağlı jurnalist araşdırmalarında dərhal həmin jurnalisti "reket" elan etmək doğru deyil: "Bu zaman burada balans itirilmiş və jurnalistikanın ictimai nəzarət funksiyaları arxa plana atılmış olacaq. Kifayət qədər obyektiv yanaşmanın ortaya qoyulması ilə, əslində, inkişafa səbəb ola bilərik".

"Reket jurnalistika" əzəli jurnalistikamıza kölgə salan ictimaiyyətin mətbuata olan inamını sarsıtmağa yönəlik fəaliyyətlə məşğuldur. Bunun qarşısını almaq üçün bütün məsələlərə obyektiv yanaşmalı, əhəmiyyətli nəticənin alınması üçün hüquq-mühafizə orqanları ilə birgə tədbirlər planına istiqamətlənmək lazımdır. "Reket jurnalistika"nın mətbuatın probleminə çevrilməsinə izin verməmək lazımdır.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*



◆ Jurnalist araşdırması



# Xəzər niyə geri çəkilir

## İqlim dəyişikliyi dünyanın ən böyük gölü üçün ciddi təhlükə yaradıb

**Xəzər dənizinin səviyyə tərəddüdləri davam edir. 2005-ci ildən Xəzərin səviyyəsində davamlı enmə müşahidə olunur. Məlumatlara görə, ən çox enmə (30 santimetr) 2021-ci ildə qeydə alınıb.**

Xəzər qapalı su hövzəsi olduğundan dənizin səviyyəsinin daxil olan və gedən sularla əlaqədar dəyişməsi təbiidir. O üzdən iqlim dəyişmələri ilə əlaqədar Xəzəri qidalandıran əsas çaylarda suyun aşağı enməsi dənizin səviyyəsinə təsir edir. Eyni zamanda bura son illər yağıntıların az olması da daxildir. Çoxsaylı coğrafi, arxeoloji, tarixi və müşahidə məlumatları göstərir ki, son 4 min ildə Xəzər dənizinin səviyyə dəyişmələrində illik müddətlik var. Sonuncu belə düşmə 1862-ci ildən başlayıb və proses təxminən 2050-60-cı illərə qədər 1-2 metr düşmə ilə davam edəcək. Mütəxəssislər qeyd edirlər ki, 2050-ci ildən sonra Xəzərdə suyun səviyyəsinin artması proqnozlaşdırılır. Bu dövr də təxminən 200-250 il davam edəcək.

Qeyd edək ki, dənizin səviyyəsinin azalması müəyyən problemlərlə müşahidə olunduğu kimi, suyun artması da çətinliklərə gətirib çıxarır. Ona görə də dəniz sahilində görülən bütün işlər zamanı Xəzərin səviyyəsinin dəyişməsi nəzərə alınmalıdır.

### Xəzərin ətraf mühitinin bugünkü vəziyyəti narahatlıq doğurur

Xəzəryanı ölkələr daim dəniz problemlərini diqqətdə saxlayır. Bu istiqamətdə mütəmadi olaraq konfranslar keçirilir, alimlər tərəfindən dənizin biomüxtəlifliyi öyrənilir, çirklilik səviyyəsi müəyyənləşdirilir. Sonuncu belə beynəlxalq tədbir iyulun 5-də "İqlim dəyişmələri şəraitində Xəzər dənizinin səviyyə tərəddüdləri, proqnoz və uyğunlaşma tədbirləri" mövzusunda Bakıda keçirilib.

Xəzəryanı ölkələrin mütəxəssislərinin, beynəlxalq təşkilatların nümayəndələrinin və xarici ekspertlərin iştirakı ilə keçirilən konfransda Xəzər dənizinin hazırkı və gözlənilən səviyyə tərəddüdləri, həmçinin iqlim və səviyyə proqnozlarını nəzərə alaraq milli və regional uyğunlaşma tədbirlərinin müəyyən edilməsi üçün əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev konfrans iştirakçılarına müraciətində deyib ki, Azərbaycanda Xəzər dənizinin ətraf mühitə mənfi təsirlərini minimuma endirmək üçün ardıcıl tədbirlər görülür. Nazir Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə işlərin davam etdirildiyini, dənizin bioloji ehtiyatlarının və hidroloji vəziyyətinin öyrənilməsi və ətraf mühitə mümkün neqativ təsirlərin müəyyənləşdirilməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Əlif Hacıyev" elmi-tədqiqat gəmisi ilə mütəmadi ekspedisiyalar keçirildiyini vurğulayıb. Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlarından səmərəli istifadə məsələlərinin birinci növbədə Xəzəryanı ölkələrin milli siyasətinin prioritet istiqamətlərindən biri olduğunu deyən Muxtar Babayev həmçinin Xəzər dənizində birgə ekoloji monitorinqlərin planlaşdırılması, həyata keçirilməsini təklif edib və regional əməkdaşlığın, xüsusilə ekoloji problemlərin həllində Xəzəryanı ölkələrin səylərinin birləşdirilməsinin vacib olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyev də Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Toplantısında Xəzər dənizinin ətraf mühitinin bugünkü vəziyyətinin və dəniz səviyyəsinin aşağı düşmə dinamikasının narahatlıq doğurduğunu, bu problemlərin həlli ilə əlaqədar əməkdaşlığın genişləndirilməsində ölkəmizin maraqlı olduğunu vurğulayıb. Dövlət başçısı Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı ölkələrin uğurlu qarşılıqlı fəaliyyətinin davam etdiyini, bu ilin sonunda Bakıda "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının tərəflərinin VI konfransının keçirilməsinin nəzərdə tutulduğunu bildirib: "Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Buna görə biz fikir mübadiləsi apardıq və yəqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər".

### Xəzərin səviyyəsinin enməsi ciddi problemlərə yol aça bilər

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Mühafizəsi Xidmətinin rəisi Mehman Axundov deyir ki, proqnoza görə, 2022-ci ildə Volqa çayının sululuğunun proqnozlaşdırılandan aşağı olması ilə əlaqədar Xəzər dənizinin orta illik səviyyəsi əvvəlki 2021-ci ildəkindən 20-23 sm aşağı olacaq. Bu da öz növbəsində Xəzər dənizi regionunda sosial-iqtisadi fəlakətə, o cümlədən dənizin səviyyəsinin azalmasına səbəb ola bilər. Sözügedən fəsadlar sırasında biomüxtəliflik və balıqçılığın azalmasını da qeyd etmək olar.

Üstəlik, Xəzərin səviyyəsinin dəyişməsi fonunda onun canlı aləmi də dəyişikliyə məruz qalır. Belə ki, səviyyənin enməsi balıqların yerlərini itirməsinə, ümumiyyətlə, balıq ehtiyatının azalmasına gətirib çıxarır. Balıqların sayının azalmasının əsas səbəbləri sırasında brokonyerlik və suyun çirkli olması göstərilsə də, son illər çirklənmənin rolu olmadığı deyilir. Qeyd edilir ki, iqlim dəyişmələri ilə əlaqədar dənizdə suyun temperaturunun artması onların populyasiyasına təsir göstərir və onlar digər areallara doğru miqrasiya edirlər. Bunlar isə sırf iqlim faktorlarıdır.

Mehman Axundov qeyd edir ki, Xəzərdəki balıq populyasiyasının azalması birbaşa iqlim dəyişikliyi və temperaturla əlaqədardır. Anomal istilik Xəzər regionunda biomüxtəlifliyin azalmasına səbəb olur: "Bununla əlaqədar olaraq, balıqların təbii çoxalmasına şərait yaratmaq və biomüxtəlifliyə mənfi təzyiqi azaltmaq məqsədilə Xəzər dənizinə axan çaylarda suyun alınmasını optimallaşdırmağa və su-elektrik stansiyaları üçün bəndlərin tikintisini dayandırmağa çağırırıq. Əks halda, Xəzərdə Aral dənizinin yoxa çıxmasına bənzər ssenari baş verə bilər".

### Xəzər suitisinin itmə təhlükəsi varmı?

Müxtəlif zamanlarda Xəzər suitisinin də nəslinin kəsilmə təhlükəsi barədə məlumatlar eşitmişik. Belə ki, Xəzər suitisinin sayının XX əsrin əvvəllərində 1 milyon təşkil etdiyi, son zamanlar isə çox az qaldığı vurğulanır. Xəzər suitisi (Pusa caspica Gmelin) dənizin yeganə məməlisidir və dünyada ən kiçik qulaqsız suiti növlərindən sayılır. Təbii ki, bu məməlilərin sayının azalmasına iqlim dəyişmələrindən əlavə təsir göstərən əsas faktorlardan biri də antropagen amillərdir.

Qeyd edək ki, Xəzər suitilərinin tələfatı, həmçinin dənizin ümumi ekosisteminin vəziyyəti barədə ilk beynəlxalq narahatlıq 1997-ci ildə qalxıb. O zaman Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) ətraf mühit üzrə meneceri Liz Rogers Dünya Bankına Bakı yaxınlığında xeyli suiti cəsədi gördüyünü deyib. Dərhal ABƏŞ ilə birgə tədqiqatlara başlanılıb və cəsədlərdən götürülmüş nümunələrdə xlor üzvi birləşmələrinin miqdarının yüksək olduğu müəyyən olunub.

"Şahdəniz Mərhələ 2" qaz layihəsinin 2013-cü ildə təqdim olunmuş Xəzər suitiləri üzrə tədqiqat hesabatında deyilir ki, o vaxt təkcə Abşeronun 100 kilometrlik şimal sahilində 2210 ölü suiti tapılıb. İlk dəfə ingilis professor Seamus Kenedi tələfatın əsas səbəbini "CDV" kimi tanınan it taunu xəstəliyi ilə əlaqələndirib. Bu istiqamətdə müxtəlif layihələr çərçivəsində Xəzər suitiləri daim öyrənilib, zamanla onların müxtəlif səbəblərdən sayının kəskin azaldığı mənbələrdə qeyd olunub.

Uzun illərdir Xəzər suitisinin öyrənilməsi layihəsi ilə məşğul olan rusiyalı alim Vasili Boqoslovski qeyd edir ki, Xəzər suitisinin populyasiyasının məhv olma təhlükəsi yoxdur. O, Xəzər suitisinin nəhayət ki "Qırmızı kitab"a salındığını vurğulayıb. Alim onun populyasiyasına zəhərləyici maddələr, iqlim dəyişikliyi, balıq ehtiyatının azalması və brakonyerliyin səbəb olduğunu qeyd edir. O, həmçinin Xəzər suitilərinin vəziyyətinə təsir edən səbəbləri öyrənmək üçün Xəzərin bütün akvatoriyasında araşdırma aparılmasının lazım olduğunu deyir.

### Dənizin çirklənməsi azalıb

Xəzər dənizinin öyrənilməsi istiqamətində müxtəlif ölkələrin alimləri tərəfindən araşdırmalar bu günümüzə qədər davam edir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN), Dövlət Neft Şirkəti və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının mütəxəssislərindən ibarət ekspedisiya qrupu tərəfindən Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin adını daşıyan elmi-tədqiqat gəmisi ilə ildə 4 dəfə Xəzər dənizində şimaldan cənuba doğru monitorinqlər aparılır. Sahil zolağını da əhatə edən monitorinqlər zamanı götürülən su nümunələri üzərində fiziki-kimyəvi, mikrobioloji, toksikoloji təhlillər edilir. Bununla çirklənmə dərəcəsi müəyyən olunur. Monitorinqlər və kompleks tədqiqatlar xüsusən neft-qaz hasilatı ilə məşğul olan yerli və xarici şirkətlərin platformaları arasında - Xəzər dənizinin Azərbaycan sektorunda fəaliyyət göstərən "Bahar", "8 mart", "Ələt-dəniz", "Bulla-dəniz", "Ümid", "Şahdəniz", "Abşeron", "Çıraq", "Mərkəzi Azəri", "Günəşli", "Neft Daşları", "Palçıq pilpiləsi", "Çilov", "Səngəçal-dəniz-Duvannı-dəniz-Xərə-Zirə", "28 may" NQÇİ, JOCAP yataqlarında keçirilir. Monitorinqlər zamanı müxtəlif koordinatlar üzrə su, qrunt, zooplankton, bentos və hava nümunələri götürülür, dəniz üzərində atmosfer havasının çirklənmə vəziyyəti öyrənilir, hidrometeoroloji ölçmələr, biomüxtəliflik tədqiq edilir. Eləcə də həm şimalda, həm də cənubda Xəzər dənizinin fon müşahidələri aparılır. Neft-qaz hasilatı həyata keçirilməsinə baxmayaraq, son zamanlar müasir texnologiya və avadanlıqlardan istifadə nəticəsində dənizin çirklənmə səviyyəsinin azaldığı deyilir.

Dənizin çirklənmə səviyyəsindən danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin rəisi Nazim Mahmudov qeyd edir ki, nazirlik bu sahədə sırf nəzarət funksiyasını həyata keçirir. Məqsəd hansısa sahibkarlıq subyekti, dövlət müəssisəsini müəyyənləşdirib cərimə tətbiq etmək deyil. O qeyd edir ki, fəaliyyət nəticəsində ətraf mühitə ziyan vuran sahibkarlar bunun qarşısını almaq üçün müvafiq tədbirlər həyata keçirməli olduqlarını bilməlidirlər. Hər hansı sahibkarlıq subyekti çirkli suyu dənizə axıdırsa, məsuliyyəti özü daşıyır. Obyekt sahibləri təmizləyici qurğu quraşdırmalı və ya bir neçə sahibkar birləşib bu istiqamətdə iş görməlidir.

### Bəs Xəzər geri qayıdarsa...

Gəlinən nəticə onu göstərir ki, Xəzərin səviyyəsi hələ enməkdə davam edəcək. Təbii ki, bu da onun biomüxtəlifliyinə, bəlkə də bir çox canlıların məhvinə gətirib çıxaracaq.

Bununla yanaşı, dənizin geri çəkilməsi ilə sahilboyu ərazilərdə ictimai iaşə obyektlərinin artdığını görürük. Hətta bəzi ərazilərdə yaşayış evləri tikilir, əhali məskunlaşır. Amma unutmamalıyıq ki, Xəzərin səviyyəsi müddətli olaraq dəyişir. Yəni yenidən qayıtması ilə həmin obyektlər su altında qala, eyni zamanda əhaliyə külli miqdarda ziyan vura bilər. Bu baxımdan iqlim faktorları, həmçinin müddətlik nəzərə alınaraq zərəri qabaqcadan hesablamaq lazımdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# *Baxtıbay Jumadildin:* "Azərbaycan təbiətinin gözəlliyi, insanlarının qonaqpərvərliyi ilə heyrətamizdir"

## Azərbaycan-Qazaxıstan turizm əlaqələrinin perspektivləri qazax jurnalistin səfər qeydlərində

**Xeyli vaxtdır ki, qəzetimiz yaxın və uzaq ölkələrdən Azərbaycana gələn jurnalistlərlə birgə müxtəlif səpkili yazılar hazırlayıb dərc edir. Rusiyanın tanınmış jurnalistlərindən Vitraliy Abramov ("İzveztiya" qəzetinin keçmiş baş redaktoru) və İqor Cuxanov ("Komsomolskaya pravda" qəzetinin əlavələrindən birinin keçmiş redaktoru), İordaniyalı Sudah Maruan, İtaliyalı Andreq Pivovarovun qəzetimizdə dərc olunmuş məqalələri oxucular tərəfindən maraqla qarşılanıb. Onu da deyək ki, bu müəlliflərin çoxu Lomonosov adına MDU-nun məzunlarıdır.**









İtaliyalı sosioloq Lisiya bir neçə il əvvəl Moskvada nəşr olunan "Baku" jurnalında dərc etdirdiyi məqalədə ona Azərbaycanı tanıtdığına görə qəzetimizə xüsusi minnətdarlığını bildirmişdir. Yaxın günlərdə isə jurnal bu məqalənin müəllifini yazılarından birinin bələdçisi kimi təqdim etmişdir.

Ən maraqlısı odur ki, belə yazılar istənilən mövzuya fərqli dəyərlər sistemindən nəzər salmağa və maraqlı yanaşmaları ortaya çıxarmağa imkan yaradır. Bu dəfə biz qazaxıstanlı jurnalist Baxtıbay Jumadildinlə birlikdə müxtəlif səpkilərdə hazırladığımız yazılardan birincisini oxucuların diqqətinə təqdim edirik. Tanışlıq üçün bildirək ki, B.Jumadildin MDU-nun məzunu, "Qazaxtonu" jurnalının baş redaktoru, Qazaxşünaslıq Elmi Tədqiqat İnstitunun rəhbəridir. Biz Baxtıbayla razılaşdıq ki, iki ölkə arasında turizm imkanlarını nəzərdən keçirək. Qonağımız bu məqsədlə Aktaudan bərə ilə Bakıya gəldi. Sonra biz onunla Quba, Qusar və Xaçmaz rayonlarını gəzdik. Qonağımız həyat yoldaşı ilə birlikdə Nabrandakı "Atlant" istirahət mərkəzində dincəldi.

Əvvəlcə onu qeyd edək ki, Azərbaycanın geniş turizm imkanları barədə Prezident İlham Əliyev bir neçə gün əvvəl yeni icra hakimiyyəti başçılarını vəzifə təyinatları ilə bağlı keçirdiyi qəbulda ətraflı danışmış və bu sahəni prioritet istiqamətlərindən biri kimi dəyərləndirmişdir. Dövlət başçısı illər boyu yasaq saxlanmış Göygölün cəmiyyət üçün açılmasını müsbət qiymətləndirmiş, həmin yerlərin turizmin inkişafı üçün böyük potensiala və əhəmiyyətə malik olduğunu diqqətə çatdırmışdır: "Eyni zamanda nəzərə alsaq ki, bu gün Göygöl rayonundan Kəlbəcər rayonuna yol açılır, tunel çəkilir, bu rayonun Kəlbəcər-Laçın zonasının inkişafı ilə bağlı xüsusi rolu vardır".

Ümumiyyətlə, Azərbaycanın demək olar ki, bütün regionlarının zəngin turizm potensialı mövcuddur. Ölkədə yeni logistika sisteminin qurulması, bütün istiqamətlərdə müasir yolların çəkilməsi, körpülərin salınması, aparılan quruculuq və bərpa işləri daxili turizmin inkişafına təkan verməklə yanaşı, əcnəbilərin də diqqətini cəlb edir. Bəs qonağımız bu barədə nə düşünür? Yaxşısı budur, onun yol qeydlərinə nəzər salaq:

"Azərbaycanın zəngin turizm imkanlarını əyani görmək üçün bərə ilə Aktaudan Bakıya yola düşürük. Aydın olur ki, bərələrin dəqiq cədvəli yoxdur və hərəkətləri dədə-baba qaydası ilə tənzimlənir. Yəni bərə Xəzər "qaş-qabağını salladıb üzünü bozartmasa" yola düşəcək.

Aktauda qaldığımız mehmanxanada gecə bizi oyadırlar ki, bərə dənizə çıxmağa hazırlaşır. Tələm-tələsik taksi tutub 70 kilometr aralıdakı limana yola düşürük. Bərəyə minəndə sevinirik ki, sabah axşama Bakıdayıq. Amma sən saydığını say, gör fələk nə sayır. Sahildən 70 kilometr aralanan kimi bərəmiz gözlənilmədən lövbərini salıb dayanır. 25 il bu barədə tələbə təcrübəsi keçmiş kapitan deyir ki, dənizdə qasırğadır, gözləməliyik. Dalğaların ağuşunda gözləmək yavaş-yavaş sularda əriyib itmək kimi gəlir adama. Nəhayət, ...4 gündən sonra Ələt limanına yan alırıq. Sahilə çıxanda dünya səyahətindən qayıdan adamlar kimi ləngərləyirik. Və bu zaman düşünürük ki, əgər söhbət turizmin inkişafından gedirsə, bərəyə yox, sərnişin gəmisinə bilet almaq lazımdır. Hələ təyyarəni demirik.

Bakıdan ölkənin şimalına yola düşdük. Yeni çəkilən avtomobil yolu Azərbaycanda yol infrastrukturuna olan diqqətdən xəbər verirdi. Bu rahat yolla gəlib çatdığımız Qusarda, Qubada olduq, Xaçmazın nağıla bənzəyən gecələrini seyr etdik. "Qırmızı qəsəbə"də yəhudilərlə çay süfrəsinə əyləşdik, onlara "Baku" jurnalında "Azərbaycan" qəzetinin bələdçiliyi ilə "Qırmızı qəsəbə" haqqında geniş yazını təqdim etdik. Qusarı da gəzib dolaşdıq. Restoranların birində Azərbaycan və ləzgi mətbəxinin nemətlərini daddıq. Ət, göy və bizim üçün eksklüziv hazırlanan pendirli göy qutablarının dadına baxdıq, itburnundan, yemişandan hazırlanan yerli limonadların ətrinə heyran olduq. İstəsəniz belə, dünyanın heç yerində belə içkilər tapa bilməzsiniz.

Hələ bir ailəyə qonaq getməyə də macal tapdıq. Sən demə, Azərbaycanın ən böyük sərvəti gülərüzlü, qonaqpərvər insanları imiş. Şimal rayonlarında bir neçə xalqın nümayəndəsi bir ailənin üzvləri kimi mehriban yaşayır. Burada müxtəlif xalqların bir-birinə bağlılıqlarını naxışları ilə hamını heyran qoyan Quba xalçasına da bənzətmək mümkündür. İnsanlar üzügülər və qonaqpərvərdirlər. Bu yerlərdəki istirahət mərkəzləri də ecazkardır. Orta səviyyəli istirahət mərkəzlərini müqayisə etdikdə görürsən ki, qiymətlər Qazaxıstandan iki dəfə ucuzdur.

Amma problem ondadır ki, Azərbaycanın bu imkanları və turizm potensialı haqqında Qazaxstanın internet resurlarında və sosial şəbəkələrində kifayət qədər məlumat yoxdur. Ümumiyyətlə, onu qeyd etmək lazımdır ki, Qazaxıstanın nəinki Azərbaycan, ümumiyyətlə, Qafqaz istiqamətində turizm əlaqələri demək olar ki, mövcud deyil. Əvəzində qazaxıstanlı turistlərin alışdığı və yaxşı tanıdığı marşrutlar Türkiyədən, Avropadan və Çindən keçir. Düzdür, son illər Azərbaycanla Qazaxıstan arasında iqtisadi əlaqələr inkişaf edir, güclənir. Lakin Azərbaycanın turizm imkanlarından Qazaxıstan vətəndaşları demək olar ki, az faydalanırlar. Yəni hər iki tərəfi qane edən turizm əlaqələrindən danışmaq hələ tezdir. Daha doğrusu, bu əlaqələr yüksək nöqtəyə hələ çatmayıb. Halbuki Azərbaycanla Qazaxıstan arasında əlaqələrin inkişafı, məlumatların mübadiləsi, Qazaxıstanın sosial şəbəkələrində və turizm saytlarında Azərbaycanın turizm imkanlarının reklamı turizm axınının güclənməsinə səbəb ola bilər. Hazırda Qazaxıstanda yeni dəniz limanı tikilir, Azərbaycanda isə Ələt limanı fəaliyyətini gücləndirir. Bu imkandan istifadə etmək lazımdır.

İki xalq həm də eyni kökə, dinə və dilə malikdir. Bütün tarixi faktlar bizim qırılmaz dostluq telləri ilə bağlandığımızı təsdiq edir. Heydər Əliyev qazaxların sevdiyi tarixi şəxsiyyətdir. Hər iki dövlət müstəqilliklərini elan etdikdən sonra 30 illik diplomatiya tarixində münasibətlər qardaşlıq, qarşılıqlı anlaşma şəraitində inkişaf etmişdir. Bu günün özündə belə, Azərbaycan-Qazaxıstan münasibətləri beynəlxalq arenada bütün dünya üçün örnək ola bilən nümunədir.

Onu qeyd etmək lazımdır ki, dünyada mövcud reallıqlar, siyasi qüvvələrin balans vektorları sürətlə dəyişməkdədir. Artıq qazaxlar üçün Bakı Avropaya açılan pəncərədir. İki dövlət arasında imzalanan müqavilələrin sayı artır və bu əlaqələr zəncirində tərəflərin müvazinətini qoruyan amil və əsas istinad nöqtəsi iqtisadi ticarət əlaqələrinin inkişafıdır. Təəssüf ki, bu fonda qarşılıqlı turizm səfərləri istənilən səviyyədə deyil. Çünki hər iki ölkədə turizmin təbliği ilə bağlı ciddi informasiya boşluqları mövcuddur. Bunu aradan qaldırmaq üçün fəal təbliğat siyasəti həyata keçirilməlidir.

Xəzərin o biri sahilində - Qazaxıstanda heç kim bilmir ki, Azərbaycanda yüksək tələblərə cavab verən və o qədər də baha olmayan istirahət mərkəzləri, sanatoriyalar, kurortlar mövcuddur. Mən və həyat yoldaşım "Atlant" əyləncə və istirahət mərkəzində dincələrkən bunun şahidi olduq. Təbiətin gözəlliyi, insanların qonaqpərvərliyi heyrətamizdir. Gəzirsən və görürsən ki, insanlar səni addımbaşı sevgi və sayğıyla qarşılayırlar. Hamı yaxınlaşır, təbəssümlə salam verir, Qazaxıstanı sevdiyini deyir. Başqa ölkələrdə çətin ki, bizi belə qarşılasınlar".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

Rəsmi adı Ahıl şəxslər üçün sosial xidmət müəssisəsi olsa da, el arasında ora "qocalar evi" deyənlər də var, "atılmışlar evi" adlandıranlar da... Kimin necə deməsindən asılı olmayaraq, talesiz insanların cəmləşdiyi bir məkandır ora... Arzuları, xəyalları tükənmiş, ümidləri ölmüş, indi hər şeylə razılaşan, hər şeyə "amin" deyən, bir zamanlar isə daha çox diqqət tələb edən, olduqca həssas, tələbkar, heç kimlə "dil" tapıb yola getməyən, bəzən də başa düşülməyən qəribə taleli insanların cəmləşdiyi uzaq bir yaşıl ada, sonuncu dayanacaq yeri də adlandıra bilərik oranı... Nə qədər acı, qəribə olsa da, "öz sakinlər"i "sonuncu stansiya" adlandırırlar oranı...







# Ümidsiz insanların ümid yeri

Həbib kişi deyir ki, yaxşı başa düşürük ki, gedəcəyimiz bir ünvan, döyəcəyimiz bir qapı yoxdur. Hamıdan və hər şeydən əlimiz üzüləndən sonra dövlətimizin qapısını döydük. Var olsun dövlətimiz. Övladlarımız kimi qapını üzümüzə bağlamadı. Gələnimiz, gedənimiz yoxdur. Gözlədiyimiz ölümdür, nə zaman gələrsə, qarşılamağa hazırıq.





## Bilgəh ahıllar evi "dünən" və bu gün

Bilgəhdəki ahıllar evini öz şəxsi vəsaiti hesabına Bakı milyonçusu Hacı Hacıağa Dadaşov açıb. Bu haqda yazıçı Qılman İlkin "Bakı və bakılılar" əsərində yazır: "Bir gün Bakı milyonçusu Hacıağa Dadaşov güclü yağış zamanı küçədə bir qocanın oturduğunu görür və ondan yağışlı havada burada nə üçün oturduğunu soruşur. Qoca evsiz olduğunu deyir. Bundan bərk təsirlənən Hacı Bilgəhdəki 12 hektar ərazisi olan bağ evini qocalar evi edir. Daha sonra Bakıda bir neçə uşaq evi də açan Hacı bu evlərin ərzaq təminatını, təhsil xərclərini də öhdəsinə götürmüşdü. Ancaq o zaman heç kim bu işlərin kim tərəfindən həyata keçirildiyini bilmirdi. Çünki Hacı öz adının çəkilməsini istəmirdi. Hacıağa Dadaşovun böyük oğlu Ağa Yusif bəy hər cümə məscidlərə gedər, imkansız ailələrə pul paylayarmış".



İlk dəfə 1991-ci ilin qış aylarında Bilgəhdəki ahıllar evində olmuşdum. O zaman buralar natəmiz, iyli, qoxulu, ölüm düşərgəsinə bənzəyirdi. Aclıqdan, ərzaq qıtlığından, baxımsızlıqdan, şəraitsizlikdən zülüm çəkən qocalardan yalnız giley-güzar eşitmişdim. Binanın soyuq divarlarından nəm su süzülürdü. İşıqlar yanmırdı... Sakinlər "bizi acından öldürməkdənsə, güllələsinlər ki, əzabla ölməyək", - deyib fəryad edirdilər. Bir sözlə, o zamandan Bilgəhdəki ahıllar evi yaddaşımda daha çox "cəza" müəssisəsi kimi qalmışdı.

## İnsanların inamla gedə biləcəyi ünvan

"Babam dövlət", "mənim dövlətim" ifadəsini daha çox türklər, türkiyəlilər işlədirlər. Vətəndaş dövləti ilə fəxr edəndə, üzərində dövlətin qayğısını görəndə, dövləti özünün canında, qanında hiss edəndə ona ürəklə "babam dövlət", "mənim dövlətim" deyə bilir. Dövləti ilə qürur duyur. Bilgəhdəki ahıl şəxslər üçün sosial xidmət müəssisəsində olarkən gördüklərimlə, Azərbaycan vətəndaşı olmağımla qürur duydum. Tanrıya şükür etdim ki, ümidsiz insanların ürəklə gedə biləcəkləri bir ünvan var. Oğulu, uşağı, qohumu, qardaşı, bir sözlə, yaxınları tərəfindən atılan, tərk edilən insanlara dövlətin sahib çıxdığını görüb təsəlli tapdım. Bir zamanlar həyətində vur-tut keçmişdən qalma 5-6 ədəd küknar və şam ağacı olan ahıllar evinin həyəti yaşıllığa bürünüb. Səliqə-sahman adamın könlünü oxşayır. Burada sakinlərin oturub söhbət etmələri, vaxtlarını keçirmələri üçün hər cür şərait yaradılıb desək, mübaliğə etmiş olmarıq. Qocalar yaşıllıqda qoyulmuş söhbətgahlarda oturub nərd, domino, şahmat oynayır, tarda, gitarada, müxtəlif musiqi alətlərində ifa edirdilər. Sözün açığı, mənə elə gəldi ki, ünvanı səhv salmışam. Ahıllar evinin səliqə-sahmanlı binası öz gözəlliyi ilə göz oxşayırdı.

## Özlərindən küsənlər

Ahıllar evinin direktoru Samirə Mehtiyeva ilə söhbət zamanı öyrənirik ki, müəssisənin 193 sakininə 68 əməkdaş xidmət göstərir. Samirə xanım bildirir ki, o, cəmi iki ildən bir az çoxdur ki, orada çalışır: "Bu müddət, əslində, sakinlərimizi tanımaq, onların xasiyyətini bilmək üçün az vaxt deyil. Buranın sakinləri çox həssas, diqqət tələb edən, incəqəlbli insanlardır. Çoxu nəinki övladlarından, yaxınlarından, hətta özlərindən küsüblər. Çalışırıq ki, onları həyatla, özləri ilə barışdıraq. Bəzən təzə gələn sakinlərimiz yeməkdən belə imtina edirlər. Biz onlara bir ailə olduğumuzu, birlikdə güclü olacağımızı inandırmağa çalışırıq. Burada çox dərdli insanlar var. Onlara dərdlərini unutdura bilməsək də, yaralarına məlhəm olmağa çalışırıq". Samirə xanım deyir ki, şükür ki, COVID-19 pandemiyası ilə əlaqədar sakinlərimizdən ölən olmadı. Dərhal Heydər Əliyev Fondunun əməkdaşları başımızın üstünü aldılar. Otaqlar, bina, vaxtaşırı dezinfeksiya olundu. Sakinlərə maskalar verildi... Müəssisədə ciddi karantin qaydaları tətbiq edildi. Müəssisəmiz dövlət qayğısı ilə tam təmin olunub, ərzaqla, digər təchizatla bağlı heç bir problemimiz yoxdur. Hətta xeyirxah insanlar əvvəllər bura qurban əti, digər ərzaq məhsulları ilə kömək edirdilər. Artıq buna da ehtiyac qalmayıb. Sakinlərimiz gündə üç dəfə yüksək səviyyədə müxtəlif təamlarla, meyvə-tərəvəzlə təmin edilir, qidalanırlar. Yeməkxanaya getmək imkanı olmayan qocalarımıza xidmət göstərilir, onlar hər gün həkim müayinəsindən keçirlər. Vaxtaşırı olaraq Kordioloji İnstitutun, Dövlət Gömrük Xəstəxanasının, Zərifə Əliyeva adına Göz İnstitutunun əməkdaşları müəssisəmizdə olub sakinlərimizi müayinə edirlər. Elə olur ki, yaşlı, xəstə sakinlərimizin müalicə almaları üçün onları xəstəxanalara yerləşdiririk, tez-tez də baş çəkib səhhətləri ilə maraqlanırıq. Kimsəsiz olmalarını unutdurmağa, xəstəxanada ölümü yox, bizi gözləmələrinə çalışırıq. Yaşlı adamlardır. 96-97 yaşlı sakinlərimiz var. Həyat əbədi deyil. Vidalaşdığımız sakinlər də var.

## Kimsəsizlər məzarlığı

Samirə xanım deyir ki, əvvəllər buranın sakinlərinin dünyasını dəyişəndən sonra dəfni də ciddi bir problemə çevrilmişdi. İndi artıq o problem də öz həllini tapıb. Adının çəkilməsini istəməyən xeyirxah bir insan sakinləri dəfn etmək üçün bizə bir ərazi "bağışlayıb". İndi dünyasını dəyişən sakinlərimizi el adəti ilə rahatlıqla orada dəfn edib, qəbirüstü abidələrini də qoyuruq. Artıq biz bu insanlarla doğmalaşmışıq. Onlardan ayrılmaq bizə doğmalarımızdan ayrılmaq qədər çətin olur. Burada çox gözəl xarakterli insanlar məskunlaşıblar. Onlardan üç nəfəri dünyasını dəyişəndə mən çox sarsıldım. Göz yaşımı saxlaya bilmirdim... Onlar məni öz övladları bilirdilər. Baxmayaraq ki, onlar çox yaşlı idilər, mən onları öz doğmalarım kimi sevirdim. İnsanlar yaşlaşanda uşaqlaşırlar...

## Aləmə yayılan "ayrılıq" səsi

Mövlanə deyir ki, məni anlamaq üçün ayrılıq əzabı çəkmiş, qəlbi yaralanmış bir insan istəyirəm ki, iztirablarımı, dərdlərimi ona anladım. Pəncərələrdən insanın içini didib-parçalayan, həzin, kövrək, iniltili bir səs gəlir. Bir nəfər "Ayrılıq" mahnısını oxuyurdu. Amma sanki oxumurdu, ruhunun son akkordlarını vururdu. Səs gələn otağa tərəf gedirəm. Bu gözəl səsin sahibi ilə tanış oluruq. Əli Cəfərov əslən Ordubad rayonunun Dəstə kəndindəndir. Son iş yerini Bakı şəhərində Radio və elektronika aparatlarının təmiri və quraşdırılması idarəsinin müdiri vəzifəsində başa vurub. Eyni zamanda Azərbaycan Neft Sənayesi və Politexnik universitetlərində saat hesabı ilə dərs deyib.

## Verdiyim dərsdən çox aldığım dərs yadımda qalıb

Əli müəllim deyir ki, iki övladım - bir oğlum, bir qızım var. Təəssüf ki, yoldaşım məni tərk edib haqqın rəhmətinə qovuşdu. Oğlum Mərkəzi Bankda işləyirdi. Çox savadlı mütəxəssis idi. Bacarıqlı işçi olduğu üçün tez-tez xarici ölkələrdə səfərlərdə olurdu. Bir gün Avropaya getdi və orada iş dəvəti aldı. Oğlum Avropanı seçdi. Qızım isə Türkiyədə biznes qurmaq istədi. İşi alınmadı... ziyanla qayıdıb gəldi üstümə. Övladdır, çöldə qoya bilməzdim. Evimi onlara verdim. Amma sonralar kürəkənlə bir evdə yaşaya bilməyib buranı seçdim. Dövlətim məni yaşatdı. Baxın bura, gül kimi, səliqəli, hər cür qayğı göstərirlər bizə. Təqaüdümü də alıram. Gördüyünüz kimi, burada bir otaqda bir nəfər yaşayır. Çox sakitəm. Amma yoldaşımın ayrılığına dözə bilmirəm. Kişi anadan, atadan yetim qalmır. Kişi xanımını itirəndə yetim olur. Əli kişini sözünü tamamlamağa göz yaşları imkan vermir...

Onunla vidalaşıb dəhlizə çıxıram. Kəklikotunun xoş rayihəsi adama gəl-gəl deyir. Qapını döyüb cavab gözləyirəm. İçəridən "buyurun gəlin" nidası gəlir.

Hüseyn Zeynalov əslən Gürcüstanın Marnueli rayonundandır. Ömrü boyu ürək həkimi işləyib. Üç övlad atasıdır. Həyatının böyük hissəsini Ukraynada keçirib.

- Bir gün yaxın qohumumun qızını götürüb qaçdılar. Fikirləşdim ki, mənim qızım da böyüyür. Bu iş mənim də başıma gələ bilər. Ailəmi götürüb Bakıya gəldim. Kaş ki, gəlməyəydim... Ailəmin nizamı pozuldu. Oğlanlarım nankor oldular. Qızımın üç övladı var. Hərdən yanıma da gəlirlər... Açığını deyim ki, gözüm yoldadır, hey onları axtarıram... Ayrılıq dərdi ağır olurmuş...

Ahıllar evinin söhbət etdiyim başqa bir sakini Elmira Məhərrəmova əslən Bakıdandır. 6 ildir ki, Ahıllar evində məskunlaşıb. Başı "qış tədarükünə" bərk qarışıq idi. Çiyələk mürəbbəsi bişirirdi. Elmira xanım deyir ki, "hər şey alın yazısıdır. Elə bura gəlməyim də... Ömür boyu gözəl işlərdə işləmişəm. Son iş yerim Kondisioner zavodunda anbar müdirliyi olub. Kondisioner zavodunda işləyirdim, amma evimdə kondisionerim yox idi. Vicdanla işləyirdim. Allah mənə bir oğul vermişdi, onu da mənə çox gördü. 18 yaşında başında şiş əmələ gəldi... Tez itirdim oğlumu... Qardaşımın yanında yaşayırdım. Gərək insan özünə hörmət qoysun. Özünə hörmət qoymayana hörmət etməzlər. Bir gün hiss etdim ki, yaşadığım evdə artığam. Onda dövlətimə müraciət etdim, müraciətimə baxıb məni bura göndərdilər. Baxın şəraitimə... Bura mənə əsl isti yuva oldu. Burada doğmalıq, yeni həyat, insanlıq tapdım.

Dövlətimlə fəxr edirəm. Mənim kimi kimsəsizlər düşünməsinlər ki, təkdirlər. Düşünsünlər ki, arxalarında qüdrətli Azərbaycan dövləti var... Dövlət hamımıza babalıq edə bilir...

## Arzular, xəyallar bitəndə...

Həbib Qəmbərov Şərur rayonundandır. 3 qız, 2 oğul atasıdır. 2006-cı ildən Ahıllar evində məskunlaşıb. Çox maraqlı insandır. Bizə öz həyat hekayəsini anladır:

- Qayınanam ailəmə müdaxilə edirdi. Uşaqlarımı tovlayırdı, övladlarım üzümə qayıdırdılar. Bir gün ailəmlə vidalaşıb bura gəldim. Bura gələndə ürəyim bomboş idi. Arzularım tükənmişdi. Xəyallarım bitmişdi. İnsanı yaşadan ümiddir, arzudur, xəyaldır. Mənim ürəyim isə bomboşdur. Dəfələrlə canıma qıymaq istəmişəm. Özüm qərar verməkdən qorxub, Allahın hökmünü gözləmişəm. Cismim bir quru qəfəsdir. Amma yaşayıram. Buradakı insani münasibətlər, gözəllik məni yaşadır... Burada musiqi var... hərdən rəqs edirik. Bizi müxtəlif yerlərə gəzintiyə aparırlar. Hətta bir tamaşa da səhnələşdirmişik. Türk yazarı Toyğun Urvayın pyesi əsasında "23:59" adlı bir kompozisiya hazırlamışdıq. Baş rolu mən oynayırdım. Bilirsən kompozisiyanı niyə belə adlandırmışdıq? Yəni bundan beləsi yoxdur. Biz sonuncu stansiyada dayanıb sonuncu qatarı gözləyənlərik.

Burada olan şəraitdən, gözəllikdən, sakinlərə qarşı dövlətin diqqət və qayğısından istədiyimiz qədər yaza bilərik. Bu məkanda olmayan bir şey də var. İnsanların gözündə ümid ölüb, ürəklərində arzu... Xəyalları belə yoxdur. Ürəkləri boşdur. Burada olan insanların bəzilərinin əlindən hər şeylərini onların yaxınları, övladları, doğmaları alıblar. Sevgilərini alıblar. İnamlarını oğurlayıblar. Haqq etdiklərini verməyiblər. Övladları onlara bu həyatı bəxş edən valideyinlərinə "böyüklük" etmək istəyiblər. Ata haqqını tapdalayanlar, Tanrı haqqının nə olduğunu da bilməzlər.

Əzizlərində görə bilmədikləri doğmalığı nə yaxşı ki, dövlətində tapa bildi bu insanlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

◆ Teatr

# Mövsümü uğurlu tamaşalarla başa vurmuşuq

Daha bir teatr mövsümü başa çatdı. Yola saldığımız mövsüm teatrımız üçün yaradıcılıq baxımından məhsuldar oldu. Həm klassik, həm də müasir dramaturqların yaradıcılığına müraciət etdik. Teatrsevərlərin qarşısına maraqlı tamaşalarla çıxdıq. Teatrımızın yaradıcı kollektivi builki mövsümdə də dövrün və zamanın nəbzini tutan səhnə əsərlərini yüksək səviyyədə tamaşaya qoymaqdan ötrü səylərini əsirgəməmişdir.

Əslində isə yarandığı vaxtdan sağlam mənəvi prinsiplər üzərində təşəkkül tapmış Lənkəran Dövlət Dram Teatrı repertuarında Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, Qərbi Avropa, rus və digər ölkələrin xalqlarının dramaturgiyasından incilərə də yer ayırmış, təkcə respublikamızda deyil, həmçinin bir sıra xarici ölkələrdə də keçirilən beynəlxalq festivallarda uğurlar qazanmışdır.






Bu gün teatrda normal yaradıcılıq mühiti hökm sürür. Yeni təyin olunmuş baş rejissor Anar Sadıqovla birlikdə kollektivin öhdəsinə düşən yaradıcılıq məsələlərinin həlli üçün səylə çalışırıq. "Aparıcı teatr" statusu almış sənət ocağımızda çalışan işçilərin əməkhaqqı fərqli dərəcədə artmışdır.





Hazırda teatrda iki Xalq artisti, iki Əməkdar artist, bir Əməkdar incəsənət xadimi, bir nəfər Prezidentin fərdi təqaüdçüsü, üç Prezident mükafatçısı və digər yüksək ada layiq olan onlarca sənət fədaisi çalışır. Onların hər biri öz istedadları hesabına tamaşaçıların hüsn-rəğbətini qazanmışdır.

Koronavirus pandemiyası ilə əlaqədar tətbiq olunan iki-illik karantin dövründə teatrın truppası özünün yaradıcılıq potensialını gücləndirməyi əsas prioritet hesab etmiş, ayrı-ayrı aktyorlarımız formasını itirməmək üçün fərdi məşqlər keçmişlər.

Truppamız Cəfər Cabbarlının "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" tamaşası ilə ötən ilin noyabrında Astara, Lerik, Ağdam və Biləsuvar rayonlarında qastrol səfərlərində olmuşdur. Ağdam səfəri xüsusilə sənətçilərimizə unudulmaz anlar bəxş etmişdir. Belə ki, ağdamlı həmkarlarımızla razılaşma əsasında hər iki kollektiv arasında yaradıcı əlaqələrin qurulması, qarşılıqlı qastrol səfərlərinin təşkili, rejissor və aktyor mübadiləsi, texniki dəstək, yaradıcı görüşlər və təcrübə mübadiləsi nəzərdə tutulur. Təqdirəlayiq haldır ki, Vətən müharibəsində qazanılmış qələbədən sonra Qarabağa ilk qastrol səfəri də məhz bizim teatra qismət olub. Ağdamda olduğumuz müddətdə biz ermənilər tərəfindən dağıdılmış Ağdam şəhər məscidinə və Ağdam Dövlət Dram Teatrının uçub-sökülmüş binasına baş çəkdik, mənfur qonşularımızın cinayətkar əməllərinin şahidi olduq.

Teatrımız özünün balaca tamaşaçılarını da həmişə nəzərə alır. Onlar üçün il ərzində 2-3 tamaşa qoyulur. Uşaqlar üçün hazırladığımız tamaşalara Lənkəran şəhərinin və rayonun kənd orta məktəblərinin şagirdləri həvəslə baxırlar. Bundan əlavə, həm də səyyar tamaşalar təşkil edirik.

Baş rejissor Anar Sadıqovun qələmə aldığı və quruluş verdiyi "Haqqın 44 günü" tamaşası uğurla qarşılanmışdır. 44 günlük Vətən müharibəsi dövrünü əks etdirən bu səhnə əsərini Salyan, Neftçala, Masallı rayonlarında, eləcə də Lənkəran və Göytəpə sərhəd dəstələrinin əsgər-zabit heyəti qarşısında nümayiş etdirmişik.

İyulun 15-də isə mövsümü gənc rejissor Tərlan Abdullayevin quruluşunda yazıçı-dramaturq İlqar Fəhminin "Qanlı namə" dramının tamaşası ilə başa vurmuşuq. Tarixi faktlara əsaslanan bu səhnə əsərində 42 il Səfəvi dövlətinin başçısı olmuş I Şah Abbasın hakimiyyəti dövründə həyata keçirilən islahatlardan bəhs olunur.

Uşaq və gənclərin teatra marağını artırmaq, onları sənət ocağımıza cəlb etmək məqsədilə müntəzəm olaraq axtarışlar aparırıq. Onların zövqünə uyğun tamaşalara müraciət etməyi daha vacib hesab edirik. Teatrda paralel olaraq məşqləri aparılan daha iki əsərin-

Xalq yazıçısı Kamal Abdullanın "Casus" və mərhum yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin "Prokuror" iki hissəli pyeslərin tamaşalarının növbəti teatr mövsümünün əvvəllərində hazırlanması planlaşdırılmışdır.

Gənc aktyorlarımızın formalaşmasını da ön planda saxlayırıq. Mədəniyyət Nazirliyinin dəstəyi ilə iyulun 13-dən 15-ə kimi teatrımızda gənc aktyorlar üçün 3 günlük ustad dərsləri keçirilmişdir. "Stanislavski sisteminin psixofizik etapları" mövzusunda reallaşan məşğələləri Boris Şukin adına Moskva Teatr Akademiyasının məzunu, S.Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyoru Abdulla Elşadlı aparmışdır.

Əlavə edim ki, bu ilin dekabrında İran İslam Respublikasının paytaxtı Tehran şəhərində "Sahibdelan" Beynəlxalq Teatr Festivalının keçirilməsi nəzərdə tutulmuşdur. Bu nüfuzlu sənət yarışmasına biz A.Sadıqovun "Haqqın 44 günü" tamaşası ilə qatılacağıq.

Müəyyən problemlərimiz də mövcuddur. Belə ki, teatrımızın binası sonuncu dəfə 2004-cü ildə əsaslı təmir olunduğundan bu gün artıq müasir tələblərə cavab vermir. Teatrda işıq, radio, kompüter sistemi yüksək səviyyədə olmalıdır ki, tamaşanın keyfiyyətinə müsbət təsirini göstərə bilsin.

Bütün bunlara baxmayaraq, potensial imkanlarımızdan maksimum istifadə edəcəyik.

***Tofiq HEYDƏROV,***
***Lənkəran Dövlət Dram Teatrının direktoru***

# "Azercell" şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsi ilə bağlı layihəyə start verildi

## Operatorun abunəçiləri harada olmalarına baxmayaraq, yüksəksürətli və keyfiyyətli mobil internet xidmətlərindən yararlanmaq üçün daha geniş imkanlar əldə edəcəklər

**Abunəçilərinin dinamik şəkildə artan ehtiyaclarını nəzərə alan "Azercell" ölkə boyunca 4G (LTE) şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə daha bir irimiqyaslı layihəyə start verdi.**

Bu proqram çərçivəsində növbəti 18 ay ərzində 300-dən çox yeni baza stansiyanın quraşdırılması və 1600-ə yaxın mövcud stansiyanın təkmilləşdirilməsi nəzərdə tutulur. Beləliklə, ölkənin aparıcı mobil operatorunun LTE stansiyalarının ümumi sayı 3200-ü ötəcək. Layihənin icrası nəticəsində "Azercell"in 4G şəbəkəsinin tutumu Bakı və Abşeron yarımadasında 80 faiz, rayonlarda isə 75 faiz artacaq.

Bu da öz növbəsində, abunəçiləri yüksək ötürülmə sürəti, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eləcə də sosial şəbəkələr, multiplayer oyunları, interaktiv onlayn proqramlar, videokonfranslar, video zənglər və bir çox digər rəqəmsal həlləri özündə cəmləşdirən multimedia xidmətlərinə sürətli çıxış imkanı ilə təmin edəcək.

"Azercell"in şəbəkənin genişləndirilməsi və modernləşdirilməsi layihəsi işğaldan azad edilmiş əraziləri də əhatə edir. İşğaldan azad edilən torpaqlarımızda ilk mobil infrastrukturu qurmağa müvəffəq olan "Azercell" Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid kəndləri və digər əraziləri öz şəbəkəsi ilə əhatə edib. Qeyd olunan rayonlarda "Azercell" artıq 80-dən çox baza stansiyası quraşdırıb və bu istiqamətdə apardığı işləri planlı şəkildə davam etdirməkdədir.

Operator ötən il 4G (LTE) yüksəksürətli mobil interneti Bakı Metropoliteninin bütün stansiya və tunellərində də əlçatan edib.

"Azercell" öz infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsinə sərmayə yatırımını davam etdirəcək. Bu, şirkətə Azərbaycan bazarında yeni nəsil texnologiyaların tətbiqi üçün zəruri platformanı təmin etməyə imkan verəcək. Eyni zamanda "Azercell" aktiv şəkildə telekommunikasiya sənayesinin ən son tendensiyalarına cavab verən məhsul və rəqəmsal həlləri ərsəyə gətirməyi davam edir.

# Şuşada Diaspor Gənclərinin III Yay Düşərgəsinin açılış mərasimi keçirilib





Avqustun 2-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Diaspor Gənclərinin III Yay Düşərgəsinin rəsmi açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Əlli ölkədən 115 gəncin qatıldığı Diaspor Gənclərinin III Yay Düşərgəsini açıq elan edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Yay Düşərgəsinin Qarabağın incisi olan mədəniyyət paytaxtımızda keçirilməsinin tarixi önəmindən danışıb. Bir neçə ay əvvəl Prezident İlham Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının V Qurultayının məhz Şuşa şəhərində təşkil olunduğunu xatırladan komitə sədri mərasimi Azərbaycan diaspor tarixinin əlamətdar hadisələrindən biri adlandırıb və bu münasibətlə düşərgə iştirakçılarını təbrik edib. O, Vətən müharibəsindəki tarixi Zəfərin Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və Azərbaycan Ordusunun rəşadəti sayəsində mümkün olduğunu vurğulayaraq deyib: "Azərbaycan tolerant ölkədir. Biz heç vaxt heç kimin torpağını işğal etməmişik. Siz bununla fəxr etməli və Azərbaycanın düşmənlərinə qarşı ideoloji mübarizə aparmalısınız. Biz istəyirik ki, buradan qayıdandan sonra siz yaşadığınız ölkələrin parlamentlərinə, hökumətlərinə, eləcə də beynəlxalq təşkilatlara öz mövqeyinizi bildirəsiniz. Biz çalışırıq xaricdə yaşayan gənclərə dəstək olaq ki, onlar müəyyən mövqelərə addımlaya bilsinlər. Biz çalışırıq xaricdəki, elm, texnologiya və digər sahələrdə nailiyyətlər əldə etmiş gəncləri Azərbaycana dəvət edək və onları dövlət qurumlarının nümayəndələri ilə görüşdürək. Gənclər diaspor hərəkatına gəlməli və fəal olmalıdırlar. Bu baxımdan, diaspor fəaliyyətinin davamlılığının təmin olunması üçün Diaspor Gənclərinin Yay düşərgələrinin əhəmiyyəti böyükdür".

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva diaspor gənclərini Şuşada görməkdən məmnunluğunu bildirib və düşərgənin işinə uğurlar arzulayıb.

Gənclər və idman naziri Fərid Qayıbov çıxışında qeyd edib ki, ölkəmiz gənc nəslə güclü investisiya yatırır. Azərbaycan gənclərin yüksək inkişaf tempi olan ölkədir.

Gənclər Fondunun İcraçı direktoru Fərid Cəfərov Vətən müharibəsindəki Qələbənin məhz Ali Baş Komandanın ətrafında sıx birləşən gənclərin sayəsində qazanıldığını söyləyib.

"Regional İnkişaf" İctimai Birliyinin direktoru Məhəmməd Abdullayev Diaspor Gənclərinin Yay düşərgələrinin artıq ənənə halı almasının və diaspor hərəkatı tarixində ilk dəfə olaraq Qarabağ torpağında keçirilməsinin əhəmiyyətindən söz açıb.

İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Ayaz Əliyev hər bir ölkənin iqtisadi inkişafının hərəkətverici qüvvəsini gənclərin təşkil etdiyini bildirib və diaspor gənclərini Azərbaycanın iqtisadi inkişafı naminə fəallığa səsləyib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov xaricdə yaşayan gənclərimizin və Azərbaycana dost ölkələrin nümayəndələrinin "Şuşa ili"ndə qədim şəhərdə bir araya gəlməsini müsbət hadisə kimi qiymətləndirib.

Tədbir bədii hissə ilə davam edib.

Xatırladaq ki, Diaspor Gənclərinin III Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə keçirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında" 2022-ci il 5 yanvar tarixli Sərəncamı çərçivəsində həyata keçirilən layihə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gəncləri vahid platforma ətrafında bir araya gətirmək və Azərbaycanla daha yaxından tanış etmək məqsədinə xidmət edir.

Avqustun 2-dən 8-dək davam edəcək düşərgə müddətində gənclər tarixi Zəfərimizin Şuşa təntənəsinin şahidi olmaqla yanaşı, Azərbaycanla bağlarını daha da möhkəmləndirmək, ölkəmizi uğurla təmsil etmək, şəbəkələşmək, yeni dostlar qazanmaq imkanı əldə edəcəklər. Proqrama Şuşanın işğal dövründə dağıdılmış abidələri ilə tanışlıq, müqəddəs məkanları ziyarət, şəhid ailələrinin üzvləri və qəhrəman qazilərimizlə, həmçinin müxtəlif sahələr üzrə ekspertlərlə görüşlər daxildir. Əyləncəli proqramların və intellektual oyunların təşkili də nəzərdə tutulub.

Xatırladaq ki, Diaspor Gənclərinin I Yay Düşərgəsi "Cümhuriyyətin 100 illiyi" şüarı altında Şəkidə, "Nəsimi-650" II Yay Düşərgəsi isə 2019-cu ildə Şamaxıda keçirilib.


## "Azərişıq" ASC Kəlbəcər rayonu, Zod yaşayış məntəqəsində yerləşən vacib obyektlərin elektrik enerjisi ilə təmin olunması məqsədilə 35 kV-luq ÖİN xətlərinin çəkilməsi və KTM-in quraşdırılması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Kəlbəcər rayonu, Zod yaşayış məntəqəsində yerləşən vacib obyektlərin elektrik enerjisi ilə təmin olunması məqsədilə 35 kV-luq ÖİN xətlərinin çəkilməsi və KTM-in quraşdırılması işlərinin satın alınması.

İştirak haqqı - 500 manat

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bankın" Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namik Heybətov (telefon: 440-39-93, daxili (92-19)) namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 sentyabr 2022-ci il saat 12:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 15 sentyabr 2022-ci il saat 12:00-a qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 sentyabr 2022-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Erməni ekspertin etirafı

## "Dramın ucuzlaşması Ermənistanı çökdürür, qarşıda ölkəni heç də yaxşı olmayan günlər gözləyir"

Ermənistanda davam edən etirazlar fonunda iqtisadiyyatda və sosial həyatda yaranan ağır vəziyyətin daha da dərinləşməsi müşahidə olunur. Erməni ekspertlər etiraf edirlər ki, bu gedişlə ölkə böyük fəlakətlərlə üzləşəcək.

Yaşanan iqtisadi böhran şəraitində gündəlik istehlak mallarının, xüsusən də ərzaq məhsullarının qiymətində olan artım mövcud durumu daha da pisləşdirir. Bununla yanaşı bildirilir ki, ölkə iqtisadiyyatının xilasına ümid var, lakin bunun üçün hökumət populist addımlardan əl çəkməli, kəmərləri sıxmalıdır.

Dövlət maliyyəsinin idarə edilməsi üzrə beynəlxalq müşavir V.Aramyan 2022-ci ilin qalan ayları üzrə proqnozları nəzərdən keçirərkən bildirib ki, Ermənistan qarşıdakı dövrdə həm sosial, həm də siyasi baxımdan ciddi problemlərlə üzləşəcək. 2020-ci ilin böhranından sonra gələn 2021-ci ilin hamı, hətta inkişaf etmiş ölkələr üçün çətin olduğunu kimsə inkar etmir. Lakin iqtisadi tənəzzül Ermənistanda həm Aİ, həm də region ölkələri arasında ən dərindir. 2022-ci ildə makroiqtisadi canlanma natamam olacaq. 2020-ci ildəki 7,4 faiz iqtisadi geriləmədən sonra Ermənistanda iqtisadi artım xeyli aşağı düşüb. Ən azı 7 faizə yaxınlaşa biləcəyi ilə bağlı proqnozlar fantaziyadan başqa bir şey deyil.

Dramın devalvasiyasından sonra dəyər yaradan, Ermənistana pul gətirən bütün sahələr əziyyət çəkir. Məsələn, fermerdən ixrac üçün alınan pomidor və ya badımcanın qiyməti xaricə 1,2 dollara satılırdısa, bunun dəyəri 500 dram idisə, indi xaricə 1,4 dollara satılır. Ona görə də erməni ixracatçı qiymətləri qaldırmalı olur, lakin o, bu vəziyyətdən sui-istifadə edərək dollar qarşısında sabit qalır. İxracatçı erməni kəndlisindən badımcanı 150 drama yox, 120 drama alır. Nəticədə 1,5 milyon kənd sakini zərər çəkir.

Turizm sektoru da zərərlə işləyir. Əgər əvvəllər xaricə təklif edilən turist paketi şərti olaraq 1000 dollara başa gəlirdisə, indi 1200 dollar olacaq. Ona görə də turist Ermənistana gəlməzdən əvvəl daha çox düşünməyə başlayır. Ermənistanın rəqabət qabiliyyəti aşağı düşür. Tikinti sektoru da bu problemdən zərər çəkir. Tikinti sektorunda qiymətlər dollar-dram nisbətində sabitdirsə, indi nisbət dəyişdikcə qiymət artımına başlanacaq və ya itkilər yaranacaq.

Ermənistan rəqabət qabiliyyətli qiymət üstünlüyünü itirdiyindən İT sektoru da zərər çəkir. Məsələn, əgər əvvəllər "X" şirkəti xaricdən ayda 100 min dollar alıb 20 proqramçının maaşını ödəyirdisə, bundan sonra həmin məbləği alaraq 18 proqramçının maaşını ödəyəcək. Qalanını ya işdən çıxaracaq, ya da ortaqları üçün qiymətləri qaldıracaq və müştəri itirəcək.

İnvestisiya sektoru da çox ciddi zərər çəkəcək. Əgər əvvəllər investora "X" ölçülü bağ tikmək üçün 1 milyon dollar lazım idisə, indi 1,2 milyon dollar lazımdır.

Ermənistanda hökumətin qərarı ilə 2022-ci il yanvarın 1-dən minimum pensiya və müavinətlərin artırılması fonunda istehlak və ərzaq məhsullarının qiymətləri 20 faizdən çox artıb. İqtisadçı ekspert Suren Parsyan qeyd edir ki, 2019-cu ildən Ermənistanda kasıblıq səviyyəsi artır və bu tendensiya davam edir: "2022-ci ilin qalan dövründə qiymətlərin kəskin artması buna daha ciddi təsir göstərəcək. Erməni milli valyutası olan dramın devalvasiyası ölkədə həm qiymətlərin artımına, həm aclığa, həm də kasıbçılıq səviyyəsinin artmasına təkan verəcək. Erməni valyutasının bundan sonra da ucuzlaşması prosesi davam edəcək".

Ekspert onu da əlavə edib ki, işğal olunmuş əraziləri itirdiklərinə görə Ermənistan iqtisadiyyatında ciddi problemlər yaranıb. Odur ki, qarşıda Ermənistanı heç də yaxşı olmayan günlər gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### gəmiləri üçün nasosların satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 08 avqust 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### gəmiləri üçün radionaviqasiya avadanlıqlarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 08 avqust 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifova əmisi **FİRDOVSİ RÜSTƏM OĞLU ŞƏRİFOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Mehriban İmanovaya anası **SONAXANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vüqar İsfəndiyarov, Rafiq Hüseynov, İlqar Xankişiyev və Abasqulu İsmayılov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik İdarəsinin əməkdaşı Elnar Quliyevə qardaşı **YAQUB ADİL OĞLU QULİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5864
Sifariş 2140
Qiyməti 40 qəpik